## QUBADLININ İŞĞALINDAN 26 İL ÖTÜR



Azərbaycanın dilbər guşələrindən olan Qubadlı rayonunun erməni silahlı birləşmələri tərəfindən işğalından 26 il ötür. Erməni qəsbkarlarına qarşı əsl mətanətlə sinə gərən Qubadlı rayonu 1993-cü ilin avqustun 31-də işğala məruz qalıb. Xatırladaq ki, Qubadlı rayon olaraq 1933-cü ildə inzibati status əldə edib. 1963-cü ildə ərazisi Zəngilan rayonu ilə birləşdirilsə də, bir il keçməmiş yenidən ayrıca rayon adı alıb. 802 kv.km ərazisi olan bu dağ rayonunun mərkəzi Qubadlı şəhəridir. Bərgüşad çayının hər iki sahilində yerləşən...

Bax səh. 5

## AZƏRBAYCANIN REGİONLARINDA YOL İNFRASTRUKTURU QURUCULUĞU UĞURLA DAVAM EDİR



Hazırda şəhərin Əttarlar küçəsində və Nəriman Nərimanov prospekti boyunca işlər davam edir. Belə ki, prospektdə, şəhərdaxili küçələrin yollarında köhnə asfalt qatı qazılaraq yenisi ilə əvəz olunur. Şabran rayonuna gəlincə, burada uzunluğu 25 kilometr olan Surra-Düz Bilici-Qorğan-Çinarlar avtomobil yolu IV texniki dərəcəyə uyğun yenidən qurulur. Tikinti layihəsinə uyğun olaraq, marşrut boyu 16 ədəd yararsız hala düşmüş müxtəlif diametrli dairəvi suötürücü...

Bax səh. 6



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 31 avqust 2019-cu il, şənbə / № 158 (5533). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Azərbaycanda aqrar sektorun dinamik inkişafı ərzaq təhlükəsizliyinin yerli istehsal hesabına təmin olunması üçün etibarlı zəmin yaradıb



***Prezident İlham Əliyev:** Bu gün biz ərzaq təhlükəsizliyini şərtləndirən əsas sahələr üzrə ya özümüzü tam təmin edirik, ya da ki, bu hədəfə çox yaxınıq*



## Prezidentin iş günü

Prezident İlham Əliyev Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekova təbrik məktubu göndərib.

• ❖ •

Prezident İlham Əliyev Malayziyanın XVI Ali Başçısı Əlahəzrət əl-Sultan Abdullah Riayatuddin əl-Mustafa Billah Şah ibni Sultan Hacı Əhməd Şah əl-Mustain Billaha təbrik məktubu göndərib.

## Tovuz məktəbinin qürurlu anı...

Xəbər verildiyi kimi, Dövlət İmtahan Mərkəzi (DİM) 2019/2020-ci tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə yerləşdirmənin nəticələrini elan edib. Tovuz rayonu Fariz Hüseynov adına Qaraxanlı kənd tam orta məktəbinin məzunları bu il rekord göstərici qazanıblar. Belə ki, məktəbin 11 A sinfinin 23 şagirdinin hamısı tələbə adını qazanıblar. Təbii ki, regionlarımızda yerləşən məktəblərin belə bir uğura imza atması sevindirici olmaqla yanaşı, həm də həmin təhsil müəssisələrində tədrisin keyfiyyətli təşkilinin göstəricisidir. Elə F.Hüseynov adına Qaraxanlı kənd tam orta məktəbin şagirdlərinin qazandığı uğur da bu amillə sıx bağlıdır. Məktəbin direktoru Ceyran Məmmədova qəzetimizə açıqlamasında bildirib ki, hazırda məktəbdə 408 şagird təhsil alır, 75 müəllim fəaliyyət göstərir. Təhsil ocağı qabaqcıl məktəblər sırasına daxil olub. Direktorun sözlərinə görə...

Bax səh. 5

## Azərbaycanın Baş Naziri Səudiyyə Ərəbistanının "ACWA POWER" şirkətinin nümayəndələri ilə görüşüb



Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədov avqustun 30-da Səudiyyə Ərəbistanının "ACWA POWER" şirkətinin nümayəndələri ilə görüşüb. AZƏRTAC xəbər verir ki, səmimi qəbula görə...

Bax səh. 2



## ƏLİ ƏHMƏDOV: YENİ AZƏRBAYCAN PARTİYASININ ÜZVLƏRİ PREZİDENT İLHAM ƏLİYEVİN SİYASƏTİNİN UĞURLA HƏYATA KEÇİRİLMƏSİ ÜÇÜN FƏDAKARLIQ GÖSTƏRİRLƏR

**"Yeni Azərbaycan Partiyası qarşıdan gələn bələdiyyə seçkilərinə ciddi şəkildə hazırlaşır. Partiyamızın böyük resursları və seçki təcrübəsi bələdiyyə seçkiləri kampaniyasının da yüksək səviyyədə keçiriləcəyini deməyə əsas verir".** Bu fikirləri Baş nazirin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov deyib.

Əli Əhmədov bildirib ki, Yeni Azərbaycan Partiyasının 750 min nəfərə yaxın üzvü var və bu, sadəcə, statistika deyil. Onun sözlərinə görə, bu fakt vətəndaşların partiyamızın qurucusu, Ümummilli Liderimiz Heydər Əliyevin ideyalarına və Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətə inamının ifadəsidir.

**"Partiyamızın sıralarında vətənpərvər, fədakar, intellektual insanlar birləşiblər. Onlar ölkəmizin inkişafı prosesində fəal iştirak edirlər və Prezident İlham Əliyevin siyasətinin uğurla həyata keçirilməsi üçün fədakarlıq göstərirlər"**, - deyə Əli Əhmədov vurğulayıb.

## YAP İCRA KATİBLİYİNDƏ PARTİYANIN SƏBAİL VƏ XƏTAİ RAYON TƏŞKİLATLARININ ƏRAZİ İLK PARTİYA TƏŞKİLATLARI SƏDRLƏRİNİN İŞTİRAKI İLƏ MÜŞAVİRƏ KEÇİRİLİB

Avqustun 30-da Yeni Azərbaycan Partiyasının (YAP) İcra Katibliyində partiyanın Səbail və Xətai rayon təşkilatlarının ərazi ilk partiya təşkilatları sədrlərinin iştirakı ilə müşavirə keçirilib. Müşavirədə çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-İcra katibi Əli Əhmədov Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycanın ötən illər ərzində böyük inkişaf yolu keçdiyini diqqətə çatdırıb. Əli Əhmədov bildirib ki, son illər Azərbaycan iqtisadiyyatı bir neçə dəfə artıb. Təbii ki, iqtisadiyyatın inkişafı dövlətin sosial siyasətinin daha da gücləndirilməsinə zəmin yaradır. Bu mənada əhalinin rifah halının yüksəlməsi istiqamətində atılan addımlar bunun əyani göstəricisidir. Bu ilin əvvəlindən Prezident İlham Əliyevin...

Bax səh. 3



## BAKIDA TÜRKİYƏNİN ZƏFƏR BAYRAMI MÜNASİBƏTİLƏ RƏSMİ QƏBUL TƏŞKİL EDİLİB

Avqustun 30-da Türkiyənin Azərbaycandakı səfirliyində qardaş ölkənin Zəfər bayramı münasibətilə rəsmi qəbul təşkil edilib. AZƏRTAC xəbər verir ki, tədbir Azərbaycanın və Türkiyənin dövlət himnlərinin səsləndirilməsi ilə başlayıb. Səfir Erkan Özoral Türkiyə...

Bax səh. 2

## Nikol Paşinyanın bəyanatı danışıqlar prosesinə ciddi zərbədir

Məlum olduğu kimi, işğalçı Ermənistan Dağlıq Qarabağ probleminin həlli istiqamətində aparılan danışıqlar prosesinə hər zaman zərbə vurmağa çalışır. Ermənistanın baş naziri Nikol Paşinyanın 2019-cu il avqustun 5-də Xankəndiyə qanunsuz səfəri zamanı "Qarabağ - Ermənistandır və vəssalam" açıqlaması və Ermənistanla Dağlıq Qarabağın birləşdirilməsini nəzərdə tutan "miatsum" deməsi Ermənistanın əsl məqsədinin işğalçılıqdan başqa bir şey olmadığını göstərir. Bundan əvvəl isə Ermənistanın Dövlət Təhlükəsizlik Xidmətinin rəhbəri və müdafiə naziri "Azərbaycana bir qarış da torpaq qaytarmamaq", "yeni ərazilər üçün yeni müharibə" kimi məsuliyyətsiz və təxribatçı açıqlamalarla çıxış etmişdilər. Bütün bunlar Ermənistanın işğalçı mahiyyətini aydın şəkildə təsdiqləyir...

Bax səh. 5

## Qafqaz Müsəlmanları İdarəsinin sədri Səudiyyə Ərəbistanında səfərdədir



Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Səudiyyə Ərəbistanına səfəri zamanı rəsmi görüşlər keçirməklə yanaşı, bir sıra...

Bax səh. 3

## Ölkəmizdəki mövcud dini duruma həsr olunmuş müşavirə keçirilib



Avqustun 30-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər...

Bax səh. 3

## Büdcənin yarım il üzrə icrası: əsas nəticələr, hədəf və məqsədlərin uzlaşması



Dövlətin ali audit orqanı olaraq Hesablama Palatası dövlət vəsaitlərinin istifadəsi üzərində kənar dövlət maliyyə nəzarətini beynəlxalq standartlar və milli qanunvericiliyin tələblərinə...

Bax səh. 4

# Azərbaycanda aqrar sektorun dinamik inkişafı ərzaq təhlükəsizliyinin yerli istehsal hesabına təmin olunması üçün etibarlı zəmin yaradıb

***Prezident İlham Əliyev:** Bu gün biz ərzaq təhlükəsizliyini şərtləndirən əsas sahələr üzrə ya özümüzü tam təmin edirik, ya da ki, bu hədəfə çox yaxınıq*

*Hazırda dünyada müşahidə edilən neqativ meyillər, o cümlədən ekoloji problemlər, qlobal istiləşmə fonunda aqrar sektorda yaşanan çətinliklər ərzaq təhlükəsizliyi ilə bağlı məsələlərin aktuallığını əhəmiyyətli dərəcədə artırıb. Ayrı-ayrı beynəlxalq təşkilatlar da dünyanın ərzaq təminatının getdikcə pisləşəcəyi ilə bağlı bədbin proqnozlar verirlər. Dünya Səhiyyə Təşkilatının yaydığı hesabatda bildirilir ki, Yer üzündə təxminən 3,7 milyard insan lazımi səviyyədə qidalana bilmir. Haqqında bəhs olunan hesabatda bu rəqəmin ildən-ilə artdığı vurğulanır və buna səbəb kimi dünyada ərzaq təklifinin tələbə cavab vermədiyi göstərilir.*



**ÖLKƏDƏ ƏRZAQ MƏHSULLARI İLƏ ÖZÜNÜTƏMİNAT SƏVİYYƏSİNİN YÜKSƏLDİLMƏSİ STRATEJİ MƏQSƏD KİMİ QARŞIYA QOYULUB**

Yuxarıda deyilənlər fonunda Azərbaycanın ərzaq məhsulları ilə özünütəminat səviyyəsinin yüksəldilməsini strateji məqsəd kimi qarşıya qoyması təqdirəlayiq haldır. BMT-nin bəyan etdiyi Minilliyin İnkişaf Məqsədlərinə qoşulan respublikamızda ərzaq məhsullarına olan daxili tələbatın sırf yerli istehsal hesabına ödənilməsinin səviyyəsinin yüksəldilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirilib. Prezident İlham Əliyevin siyasi iradəsi əsasında ölkəmizdə ərzaq təhlükəsizliyi ilə bağlı məsələlər daim diqqət mərkəzində saxlanılır. Son 16 ildə respublikamızda ərzaq təminatının möhkəmləndirilməsi istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirilib. Ölkədə etibarlı ərzaq təminatına nail olunması üçün normativ-hüquqi baza davamlı şəkildə möhkəmləndirilir. Prezident İlham Əliyevin 25 avqust 2008-ci il tarixli müvafiq Sərəncamı ilə "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" qəbul edilib və uğurla yerinə yetirilib. 2017-ci il 10 fevral tarixində isə Prezident İlham Əliyev respublikamızda ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi siyasətinin davamı olaraq "Azərbaycan Respublikasında qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" müvafiq Fərman imzalayıb. Fərmanda ölkədə qida təhlükəsizliyinə nəzarət sistemini təkmilləşdirmək, bu sahədə şəffaflığı daha da artırmaq, pərakəndəliyi və təkrarlanmaları aradan qaldırmaq, habelə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli müvafiq Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədilə Qida Təhlükəsizliyi Agentliyinin yaradılması nəzərdə tutulurdu. Agentliyin fəaliyyətini təmin etmək məqsədilə Baş nazirin müavini Əli Əhmədovun sədrliyi ilə geniş tərkibdə yaradılan Qida Təhlükəsizliyi Komissiyası çox məhsuldar fəaliyyət göstərdi, zəruri təşkilati-texniki məsələləri həll etdi və bütün ölkə boyu geniş maarifləndirmə işi apardı. Fərmana uyğun olaraq 2018-ci ildən etibarən Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi fəaliyyətə başlayıb.

Ölkəmizdə ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı fundamental hüquqi bazanın yaradılması ilə paralel şəkildə, həmçinin praktiki müstəvidə də genişmiqyaslı tədbirlər həyata keçirilib. Regionların, kənd təsərrüfatının inkişafı ilə bağlı qəbul edilən müvafiq Dövlət proqramları çərçivəsində görülən işlər aqrar sektorda ərzaq məhsulları istehsalının artırılmasına geniş imkanlar açıb. Belə ki, regionlarda sahibkarlığın ardıcıl şəkildə dəstəklənməsi, fermerlərə güzəştli kreditlərin verilməsi, subsidiyaların həcminin artırılması, müasir təsərrüfatların yaradılması, qabaqcıl təcrübənin tətbiqi, texnika ilə təminatın gücləndirilməsi sayəsində 2019-cu ilin birinci yarısında aqrar sektorda rekord göstəricilər əldə olunub. O cümlədən respublikamızda kənd təsərrüfatının dinamik inkişafı ərzaq təhlükəsizliyinin yerli istehsal hesabına təmin olunması üçün etibarlı zəmin yaradıb. Bir qədər bundan əvvəl Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında keçirilən sosial-iqtisadi sahə ilə bağlı müşavirədəki çıxışında dövlətimizin başçısı ölkənin aqrar sektorunda istehsalın artmasından məmnunluğunu bildirərək vurğulayıb: **"Kənd təsərrüfatında bu il rekord göstərici əldə edilib. Qeyd etdiyim kimi, bu, aparılan islahatlar nəticəsində mümkün olub. Müxtəlif istiqamətli addımlar kənd təsərrüfatında canlanmaya gətirib çıxarıb. Əlbəttə ki, dövlət dəstəyi hər zaman olduğu kimi, bu il də göstərilir, bundan sonra da göstəriləcək. Bu istiqamətdə atılan addımlar artıq real nəticələr verir və kənd təsərrüfatı uğurla inkişaf edir".**

Ölkəmizdə aqrar sektorda istehsal göstəricilərinin rekord səviyyədə artmasının nəticəsidir ki, hazırda bir sıra pozisiyalar üzrə, o cümlədən də meyvə-tərəvəzə olan daxili tələbat sırf yerli istehsal hesabına ödənilir. Deyilənlərin təsdiqi olaraq vurğulayaq ki, 2019-cu ilin birinci yarısında aqrar sektorun Ümumi Daxili Məhsulda payı 5,6 faizə çatıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə bu ilin yanvar-iyun aylarında ölkədə kartof istehsalı 10,3%, tərəvəz istehsalı 13,8%, meyvə və giləmeyvə istehsalı 21,1%, bostan məhsulları istehsalı 37,5% artıb. Cari ilin 6 ayı ərzində ölkədə 335,7 min ton kartof, 675,1 min ton tərəvəz, 125,2 min ton meyvə və giləmeyvə, 54,8 min ton bostan məhsulları istehsal olunub.

Respublikanın ərzağa olan tələbatının getdikcə daha böyük həcmdə yerli istehsal hesabına ödənilməsi heyvandarlıq sahəsində daha qabarıq şəkildə nəzərə çarpır. Bu sahənin yeni yanaşmalar əsasında inkişaf etdirilməsi, o cümlədən də mal-qaranın cins tərkibinin yaxşılaşdırılması sayəsində ölkədə ət və ət məhsulları, quş əti, yumurta və digər pozisiyalar üzrə daxili tələbat əsasən yerli istehsal hesabına ödənilir, hətta ölkəmizin müəyyən həcmlərdə ixrac imkanları da yaranıb. 2019-cu ilin ilk yarısında ölkədə heyvandarlıq məhsullarının istehsalında da ciddi artım qeydə alınıb. Diri çəkidə ət istehsalı 3%, süd istehsalı 2%, yumurta istehsalı 4,5%, yun istehsalı 0,8% artıb. Yanvar-iyun aylarında ölkədə 252,5 ton diri çəkidə ət, 1037,2 ton süd, 926,9 milyon ədəd yumurta, 14,6 min ton yun istehsal olunub.

Son 16 ildə ölkənin aqrar sektorunda həyata keçirilən islahatların, maddi-texniki bazanın möhkəmləndirilməsinin, dəstək və təşviq tədbirlərinin gücləndirilməsinin məntiqi nəticəsi olaraq ərzaq məhsulları ilə özünütəminat səviyyəsinin əhəmiyyətli dərəcədə yüksəlməsi böyük nailiyyətdir. Prezident İlham Əliyev Bərdədə keçirilən pambıqçılığın inkişafı məsələlərinə dair respublika müşavirəsindəki nitqində bildirib ki, son illər ərzində biz kənd təsərrüfatının inkişafı, xüsusilə ərzaq təhlükəsizliyi məsələləri ilə bağlı çox böyük nailiyyətlərə imza atmışıq. Aqrar sektorda ərzaq məhsulları istehsalının artmasından məmnunluq ifadə edən dövlət başçısı vurğulayıb: **"Bu gün biz ərzaq təhlükəsizliyini şərtləndirən əsas sahələr üzrə ya özümüzü tam təmin edirik, ya da ki, bu hədəfə çox yaxınıq".**

**RESPUBLİKANIN ƏRZAQ TƏHLÜKƏSİZLİYİNDƏ MÜHÜM POZİSİYALARDAN OLAN TAXILÇILIQDA MƏHSULDARLIQ GETDİKCƏ ARTIR**

Son illərdə respublikamızın bölgələrində aqrar sektorun digər istiqamətləri kimi, ərzaq təminatının möhkəmləndirilməsində çox mühüm pozisiyalardan biri olan taxılçılığın inkişafı da diqqət mərkəzində saxlanılır, xüsusilə bu sahədə intensiv metodların tətbiqinə geniş meydan verilir və bu zaman qabaqcıl dünya təcrübəsi nəzərə alınır. Regionlarda taxılçılığın inkişafında Prezident İlham Əliyevin tapşırığına əsasən yaradılan iri fermer təsərrüfatlarının rolunu xüsusi qeyd etmək lazımdır. İri fermer təsərrüfatlarının yaradılması və digər dəstək tədbirlərinin görülməsi nəticəsində ölkədə taxıl istehsalı ilbəil artır. 2004-cü ildə respublikamızda cəmi 2 milyon ton taxıl yığıldığı halda, 2018-ci ildə bu rəqəm 3 milyon 200 min tona yüksəlib. İri fermer təsərrüfatlarında və aqroparklarda məhsuldarlıq daha yüksəkdir - hər hektar üzrə 50 sentnerə bərabərdir, bəzi yerlərdə isə daha yüksəkdir. Müqayisə üçün bildirək ki, dünya üzrə hər hektardan orta məhsuldarlıq 34 sentner, Avropa İttifaqı ölkələrində isə 53 sentner təşkil edir. Azərbaycan yeni yanaşmaları tətbiq etməklə iri fermer təsərrüfatlarında məhsuldarlığı 50 sentnerə çatdırmağa nail olub ki, bu da böyük uğurdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında keçirilən sosial-iqtisadi sahə ilə bağlı müşavirədə kənd təsərrüfatı naziri İnam Kərimovun verdiyi məlumata əsasən cari təsərrüfat ilində respublikamızda 1 milyon 12 min hektarda taxıl əkini həyata keçirilib. Bunun 670 min hektarını buğda, 342 min hektarını isə arpa əkini təşkil edib. Həyata keçirilən operativ tədbirlər, o cümlədən dislokasiya sisteminin düzgün qurulması, xüsusilə də müasir avadanlıqlardan istifadə edilməsi, kombaynlara GPS quraşdırılması nəticəsində bu il taxıl biçini 20 gün tez başa çatıb. Məhsuldarlıq da əvvəlki illərlə müqayisədə daha yüksəkdir. Belə ki, ötən ilə nisbətən hər hektardan təxminən 2 sentner daha çox məhsul əldə edilib. Bəhs olunan müşavirədəki çıxışında taxılçılıqda məhsuldarlığın artmasına xüsusi diqqət çəkən Prezident İlham Əliyev **"Məndə olan məlumata görə, taxıl istehsalı 40 faiz artıb. Məhsuldarlıq da kifayət qədər yüksəkdir. Əvvəlki illərlə müqayisədə indi orta məhsuldarlıq 30 sentnerdən çoxdur. Ancaq elə təsərrüfatlar var ki, orada məhsuldarlıq 60 sentnerdir və ondan da çoxdur. Yəni, bu, onu göstərir ki, müasir yanaşma, kənd təsərrüfatının elmi əsaslarla inkişafı məhsuldarlığı böyük dərəcədə artırır və artıracaq"**, - deyə vurğulayıb.

Bu məqamda onu da qeyd etmək yerinə düşər ki, ölkədə fəaliyyət göstərən taxıl istehsalçıları və emalçılarının təşəbbüsü, İqtisadiyyat və Kənd Təsərrüfatı nazirliklərinin, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının dəstəyi ilə "Azərbaycan Taxıl İstehsalçıları və Emalçıları Assosiasiyası" İctimai Birliyi təsis olunub. Mütəxəssislərin qənaətlərinə görə, taxıl istehsalı və emalı ilə məşğul olan sahibkarların fəaliyyətinin əlaqələndirilməsi, onlar arasında əməkdaşlığın genişləndirilməsi məqsədilə yaradılan Assosiasiyanın fəaliyyəti taxıl istehsalının və taxılçılıq məhsulları ilə özünütəminetmə səviyyəsinin artırılması baxımından əhəmiyyətli olacaq.

**Mübariz ABDULLAYEV**

## Azərbaycanın Baş Naziri Səudiyyə Ərəbistanının "ACWA POWER" şirkətinin nümayəndələri ilə görüşüb



Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədov avqustun 30-da Səudiyyə Ərəbistanının "ACWA POWER" şirkətinin nümayəndələri ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, səmimi qəbula görə Baş Nazirə minnətdarlığını bildirən "ACWA POWER" şirkətinin idarə heyətinin sədri Mohammad Abunayyan deyib ki, bu il mart ayının 17-də Azərbaycan Respublikası Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanının "ACWA POWER" şirkəti arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb. Memorandum Azərbaycanda bərpa olunan enerji mənbələrindən istifadə sahəsində əməkdaşlığın əsas prinsiplərini müəyyənləşdirir. Mohammad Abunayyan bərpa edilən enerji mənbələrindən istifadə sahəsində ixtisaslaşmış şirkət olaraq enerji və su layihələrini həyata keçirən "ACWA POWER"in fəaliyyəti haqqında ətraflı məlumat verib.

Baş Nazir Novruz Məmmədov görüşdə dost və tərəfdaş ölkələr kimi Səudiyyə Ərəbistanı Krallığı ilə Azərbaycan Respublikası arasında siyasi münasibətlərin yüksək səviyyəsindən məmnunluğunu bildirərək deyib: **"Xalqımızın Ümummilli Lideri Heydər Əliyev Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında dostluq və tərəfdaşlıq əlaqələrinin inkişafına mühüm əhəmiyyət verib. Bu siyasət hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir".**

Baş Nazir vurğulayıb ki, alternativ enerji ölkəmiz üçün prioritet istiqamətlərdən biridir. Azərbaycan zəngin bərpa olunan enerji mənbələrindən səmərəli istifadəni təmin etməkdə, elektrik enerjisi istehsalı sahəsində beynəlxalq şirkətlərlə əməkdaşlıqda maraqlıdır.

## Bakıda Türkiyənin Zəfər bayramı münasibətilə rəsmi qəbul təşkil edilib





Avqustun 30-da Türkiyənin Azərbaycandakı səfirliyində qardaş ölkənin Zəfər bayramı münasibətilə rəsmi qəbul təşkil edilib.

AZƏRTAC xəbər verir ki, tədbir Azərbaycanın və Türkiyənin dövlət himnlərinin səsləndirilməsi ilə başlayıb.

Səfir Erkan Özoral Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın 30 avqust - Zəfər bayramı münasibətilə təbrik məktubunu oxuyub.

Diplomat türk xalqının və Türkiyə Silahlı Qüvvələrinin Mustafa Kamal Atatürkün rəhbərliyi ilə 1922-ci il avqustun 30-da tarixi zəfər qazandığını bildirib. Qeyd edilib ki, bu böyük zəfər türk millətinin sarsılmazlığının və möhkəm iradəsinin nümunəsidir. Bütün bunların nəticəsi olaraq bugünkü Türkiyə dövləti meydana gəlib. Ötən illər ərzində Türkiyənin bir çox sınaqlardan keçdiyini deyən səfir qardaş ölkənin hər cür çətinliklərin öhdəsindən gələ biləcək gücə malik olduğunu vurğulayıb.

# YAP İcra Katibliyində partiyanın Səbail və Xətai rayon təşkilatlarının ərazi ilk partiya təşkilatları sədrlərinin iştirakı ilə müşavirə keçirilib

Avqustun 30-da Yeni Azərbaycan Partiyasının (YAP) İcra Katibliyində partiyanın Səbail və Xətai rayon təşkilatlarının ərazi ilk partiya təşkilatları sədrlərinin iştirakı ilə müşavirə keçirilib.

Müşavirədə çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-İcra katibi Əli Əhmədov Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycanın ötən illər ərzində böyük inkişaf yolu keçdiyini diqqətə çatdırıb. Əli Əhmədov bildirib ki, son illər Azərbaycan iqtisadiyyatı bir neçə dəfə artıb. Təbii ki, iqtisadiyyatın inkişafı dövlətin sosial siyasətinin daha da güclənməsinə zəmin yaradır. Bu mənada əhalinin rifah halının yüksəlməsi istiqamətində atılan addımlar bunun əyani göstəricisidir.

Bu ilin əvvəlindən Prezident İlham Əliyevin müvafiq Fərman və sərəncamları ilə ölkəmizdə əmakhaqlarının, təqaüdlərin, sosial müavinətlərin və digər sosial ödənişlərin əhəmiyyətli dərəcədə artırıldığını deyən Baş nazirin müavini qeyd edib ki, ölkəmizdə qayğıya ehtiyacı olan insanlara dövlətimiz lazımi diqqəti göstərir. Onun sözlərinə görə, hər bir ailə bu artımlardan faydalanır. Əli Əhmədov deyib ki, Azərbaycan dövləti gücləndikcə əhalinin rifah halının daha da yüksəldilməsi istiqamətində növbəti addımlar atılacaq.





YAP Sədrinin müavini bildirib ki, Azərbaycanın bu uğurları qazanmasının əsasında dayanan amillərdən biri də sabitlikdir. Çünki sabitlik olmadan heç bir inkişafdan, əmin-amanlıqdan söhbət gedə bilməz. Ona görə də hər bir dövlət və xalq üçün sabitlik ən mühüm şərtlərdən biridir.

Azərbaycanın beynəlxalq miqyasda da nüfuzunun davamlı olaraq artdığını deyən Əli Əhmədov ölkəmizin dünyada və regionda baş verən proseslərdə fəal mövqe nümayiş etdirdiyini söyləyib.

Əli Əhmədov həmçinin bu il ölkəmizdə bələdiyyə seçkilərinin keçiriləcəyini deyib və partiyamızın bu seçkilərə hazırlığı məsələləri haqqında da fikirlərini bildirib. Qeyd edib ki, bələdiyyə seçkiləri ilə əlaqədar ölkədə siyasi canlanma müşahidə olunur. O, Yeni Azərbaycan Partiyasının böyük resurslarının və seçki təcrübəsinin olduğunu deyərək bu seçkilərdə də uğur qazanılacağına əminliyini ifadə edib.

Bununla belə, Azərbaycanın inkişafını və güclənməsini istəməyən qüvvələrin olduğunu deyən YAP Sədrinin müavini həmin dairələrin müxtəlif vasitələrlə ölkəmizə qarşı qarayaxma kampaniyası apardıqlarını qeyd edib. Bu vasitələrin biri də sosial şəbəkələrdir. YAP Sədrinin müavini vurğulayıb ki, belə kampaniya aparanlar cəmiyyətimizdə ifşa olunmalıdırlar. Ona görə də partiyamızın üzvləri Azərbaycanın qazandığı nailiyyətləri insanlar arasında geniş təbliğ etmək işini fəal şəkildə davam etdirməlidirlər. O cümlədən ölkəmizə qarşı qarayaxma kampaniyası aparan dairələrin, radikal müxalifətin əsl niyyətləri ifşa olunmalıdır.

Əli Əhmədov deyib ki, müxalifətin yeni qanadı - mühacir müxalifəti yaranıb: **“Təəssüf hissi ilə qeyd etmək istəyirəm ki, ölkənin siyasi proseslərində iştirak niyyətini ortaya qoyan müxaliflər Azərbaycanda deyil, ölkədən kənarda fəaliyyət göstərirlər. Onların siyasi fəaliyyətlə əlaqədar davranışları ciddi şəkildə suallar doğurur. Xoşagəlməz hal ondan ibarətdir ki, bu qrup insanlar ayrı-ayrı xarici dairələrin alətinə çevrilə bilərlər, belə bir təhlükə mövcuddur”.**

O qeyd edib ki, Azərbaycan ictimaiyyəti onların xoşagəlməz hərəkətlərinə öz münasibətini bildirməlidir.

Müşavirədə Əli Əhmədov qarşıda duran vəzifələrlə əlaqədar ilk partiya təşkilatı sədrlərinə tövsiyə və tapşırıqlarını verib.

**Nardar BAYRAMLI**

# Qafqaz Müsəlmanları İdarəsinin sədri Səudiyyə Ərəbistanında səfərdədir




Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Səudiyyə Ərəbistanına səfəri zamanı rəsmi görüşlər keçirməklə yanaşı, bir sıra əhəmiyyətli yerləri də ziyarət edib.

QMİ-nin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Məkkə şəhərində ziyarət olunan muzeydə müsəlman dünyası üçün müqəddəs sayılan tarixi əşyalar qorunur.

Daha sonra Şeyxülislam Məkkənin məşhur astrofizika rəsədxanasında Ayı, ulduzları, planetləri öyrənən son model cihazlarla və astrofizik muzeylə tanış olub.

Səudiyyə Ərəbistanının dövlət KİV-ləri Şeyxülislam Allahşükür Paşazadənin səfərini işıqlandıraraq, bu cür əhəmiyyətli səfərin ölkələrimiz arasında münasibətlərin inkişafına və müsəlman dünyasına böyük töhfələr verdiyini bildirib.

Ziyarət zamanı Kral sarayının müşaviri, Səudiyyə Ərəbistanının Böyük Alimlər Şurasının üzvü Şeyx Səd Nasir əş-Şisri Şeyxülislam Allahşükür Paşazadəni müşayiət edib.





# Ölkəmizdəki mövcud dini duruma həsr olunmuş müşavirə keçirilib



Avqustun 30-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfovun iştirakı ilə ölkədəki mövcud dini duruma həsr olunmuş müşavirə keçirilib.

Dövlət Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, müşavirəni açan DQİDK sədri Mübariz Qurbanlı respublikada dövlət səviyyəsində milli-mənəvi dəyərlərimizin qorunması, din siyasətinin həyata keçirilməsi, dövlət-din münasibətlərinin formalaşması və inkişafı istiqamətində görülən işlər, mövcud dini durum, eyni zamanda, müzakirə olunacaq məsələlər barədə ətraflı məlumat verib.

Sentyabrın 1-nə təsadüf edən Məhərrəm ayında bütün mərasimlərin qanunvericilik çərçivəsində təşkilinə, Azərbaycan xalqının, İslam dininin yüksək mədəni normalarına uyğun keçirilməsinin vacibliyinə də toxunan komitə sədri bu istiqamətdə Qafqaz Müsəlmanları İdarəsi (QMİ) ilə birlikdə əvvəlcədən maarifləndirmə məqsədilə hazırlıq işlərinin həyata keçirildiyini, komitə tərəfindən tədbirlər planının hazırlandığını bildirib. Müvafiq tədbirlər planına əsasən Bakı şəhəri də daxil olmaqla respublikanın müxtəlif bölgələrində maarifləndirici tədbirlərin, görüşlərin keçirildiyini nəzərə çatdıran Mübariz Qurbanlı qeyd edib ki, əsas məqsəd bu mərasimlərin bütün məscidlərdə qanunun tələblərinə və QMİ-nin fətvasına uyğun şəkildə yerinə yetirilməsidir.

Daha sonra DQİDK-nın bölgə şöbə müdirləri regionlardakı dini durum, din adı altında qanunvericiliyə və milli maraqlara zidd təbliğatın aparılmasının qarşısının alınması istiqamətində aidiyyəti qurumlarla birgə görülmüş profilaktik işlər, o cümlədən təziyə məclislərinin məscidlərdə, ibadət ocaqlarında və onlara aid ərazilərdə təşkil olunması, İslam qaydalarına uyğun formada həyata keçirilməsi ilə bağlı atılan qabaqlayıcı addımlar barədə danışıblar.

Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov dini mərasimlərin mahiyyətinə uyğun, xurafat elementlərindən uzaq təşkil edilməsinin vacibliyinə diqqət çəkib. Şöbə müdiri Məhərrəm ayı zamanı Qafqaz Müsəlmanları İdarəsinin təşəbbüsü ilə talassemiya və hemofiliya xəstələri üçün keçirilən ənənəvi qanvermə aksiyasının xüsusi önəm daşıdığını vurğulayıb. E.Nəcəfov təziyə mərasimlərində Kərbəla şəhidləri ilə yanaşı, Qarabağ müharibəsi zamanı şəhid olan soydaşlarımızın da xatirəsinin anılmasının zəruriliyini qeyd edib.

Sonda müzakirə olunan məsələlərlə bağlı şöbə müdirlərinə müvafiq tapşırıq və tövsiyələr verilib.

# “TurAz Qartalı - 2019” təlimlərində iştirak edəcək Türkiyə heyətinin növbəti qrupu Azərbaycana gəlib



“TurAz Qartalı - 2019” birgə taktiki-uçuş təlimlərində iştirak etmək üçün Türkiyə heyətinin növbəti qrupu Azərbaycana gəlib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sentyabrın 2-dən 16-dək keçiriləcək təlimlərdə “MiQ-29”, “F-16”, “Su-25”, P-235 “Kasa” təyyarələri, “Mi-35”, “Mi-17, “Sikorski” UH-70, CH-47 “Çinok” və ATAK/AH-1W helikopterlərindən ibarət 30-dək aviasiya vasitəsi iştirak edəcək.






# Vüqar Rəhimzadə: İşğalçı ölkənin avantürist rəhbərinin sərsəm bəyanatları danışıqlar prosesinə ciddi zərbədir

Bu gün Cənubi Qafqaz regionunda müşahidə olunan inkişaf meyilləri, baş verən müsbət dəyişikliklər bilavasitə Azərbaycanın adı ilə bağlıdır. Ölkəmizin təşəbbüsü ilə qlobal enerji layihələrinin reallaşdırılması, beynəlxalq yükdaşıma zəncirinin mühüm halqasına çevrilmək istiqamətində atılan addımlar və s. tədbirlər regionun gələcək inkişafına öz mühüm töhfəsini verməkdədir. Lakin illərdir ki, hələ də öz ədalətli həllini tapmayan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi regionda sülhə və təhlükəsizliyə ciddi təhdid olaraq qalmaqda davam edir. Görünür, işğalçı ölkənin yeni rəhbərliyi problemi tezliklə müsbət həll etmək niyyətində deyil. Əksinə, əsl terrorçulara xas olan bəyanatlar verərək özünün təcavüzkar mahiyyətini bir daha dünyaya təqdim edir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında YAP Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib.



Vüqar Rəhimzadə qeyd edib ki, Ermənistanın baş naziri Nikol Paşinyanın Xankəndidə səsləndirdiyi sərsəm bəyanatlar bir daha bu ölkənin işğalçılıq niyyətlərinin nə qədər mənfur olduğunu, terroru və şovinizmi dövlət siyasətinə çevirdiyini təsdiqləyir: **“Bu günə kimi Ermənistan özünü məzlum, yazıq ölkə kimi təqdim edir, çirkin niyyətlərini beynəlxalq birlikdən gizlətməyə çalışırdı. Artıq Paşinyanın son bəyanatları işğalçı ölkənin yalanlarını ifşa etdi. O, bu cür avantürist bəyanatları ilə tarixi saxtalaşdırır, işğal faktına haqq qazandırır və bu çirkin siyasətin gələcəkdə də davam edəcəyini açıq şəkildə anons edir. Paşinyan belə açıqlamalara görə beynəlxalq hüquq qarşısında məsuliyyət daşıyır və buna görə cavab verməlidir. Çünki onun sərsəm bəyanatları açıq-aşkar beynəlxalq hüququn prinsiplərinə ziddir və terrora yönəlik siyasətin davam etdirilməsidir”.**

“İki sahil” qəzetinin baş redaktoru vurğulayıb ki, ATƏT-in Minsk qrupunun həmsədrləri bu cür bəyanatları cavabsız qoymamalıdırlar: **“Təəssüf ki, beynəlxalq təşkilatlar Ermənistanın işğalçılıq siyasətinə hələ də göz yumur, bu ölkəyə təzyiq göstərmir. Ermənistan isə özünü cəzasızlıq mühitində daha “sərbəst” hiss edir və özünü ərköyün uşaq kimi aparır. Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə məşğul olan ATƏT-in Minsk qrupunun həmsədrləri də hər zaman olduğu kimi, yenə də susqunluq nümayiş etdirir, işğalçı ilə işğala məruz qalana eyni münasibət sərgiləyirlər. Bu, qətiyyən yolverilməzdir. Paşinyanın belə sərsəm bəyanatları ATƏT-in Minsk qrupunun fəaliyyətinə də bilavasitə kölgə salır, onun səylərini heçə endirir. Bir sözlə, işğalçı ölkənin avantürist rəhbərinin sərsəm bəyanatları danışıqlar prosesinə ciddi zərbədir”.**

Vüqar Rəhimzadə əlavə edib ki, kimin hansı sərsəm bəyanat səsləndirməsindən asılı olmayaraq, Dağlıq Qarabağ Azərbaycanın əzəli tarixi torpağıdır, ayrılmaz tərkib hissəsidir. İşğal altında olan torpaqlarımızın azad olunması, qaçqın və məcburi köçkünlərin doğma yurd-yuvalarına qaytarılması üçün mümkün olan bütün vasitələrdən istifadə ediləcək, ölkəmizin ərazi bütövlüyü bərpa olunacaq.

# Büdcənin yarım il üzrə icrası: əsas nəticələr, hədəf və məqsədlərin uzlaşması



**Vüqar GÜLMƏMMƏDOV**
**Azərbaycan Respublikasının Hesablama Palatasının sədri**

Dövlətin ali audit orqanı olaraq Hesablama Palatası dövlət vəsaitlərinin istifadəsi üzərində kənar dövlət maliyyə nəzarətini beynəlxalq standartlar və milli qanunvericiliyin tələblərinə uyğun şəkildə həyata keçirir və bu, müxtəlif vasitələrin tətbiqini nəzərdə tutur. Dövlət büdcəsinin icrasına nəzarətin bir istiqaməti kimi Hesablama Palatası müxtəlif məlumat mənbələrindən istifadə etməklə müəyyən dövrləri əhatə edən təhlillər həyata keçirir. "Hesablama Palatası haqqında" Qanunun tələblərinə uyğun olaraq 2019-cu ilin altı ayı üzrə aparılmış təhlil də müvafiq qaydada təqdim edilmişdir. Hesablama Palatası belə təhlillərin aparılmasının beynəlxalq maliyyə institutları tərəfindən dövlət maliyyəsində şəffaflıq və hesabatlılıqla bağlı reytinq qiymətləndirmələrində Azərbaycan Respublikasının mövqeyinin yaxşılaşdırılmasına xidmət edəcəyi qənaətindədir.

Cari ilin birinci yarısında qlobal səviyyədə makroiqtisadi şərait əsasən siyasi müstəvidə gərginliyin iqtisadi müstəviyə sürətli transmissiyası və bu transmissiyadan doğan müxtəlif istiqamətli tədbirlərlə xarakterizə oluna bilər. Belə ki, "sıxılan" investisiyalar İnkişaf Etməkdə Olan Ölkələrdə (İEOÖ) iqtisadi artımın səngiməsinə şərait yaratmış, iqtisadi aktivliyin stimullaşdırılması məqsədilə mühüm monetar hakimiyyətlərin sərt monetar siyasət tədbirləri təxirə salınmış, ABŞ və Çin arasında ticarət münasibətləri kəskinləşmiş, Breksit qeyri-müəyyənliyi, Avrozonada müvəqqəti sənaye durğunluğu, eləcə də geosiyasi gərginliklərə həssas xammal qiymətlərinin dəyişkənliyi iqtisadi proseslərə təsir edən mühiti formalaşdırmışdır. Qeyd edilən faktorlar nəzərə alınmaqla Beynəlxalq Valyuta Fondu dünya üzrə cari ilin sonuna gözlənilən iqtisadi artım proqnozuna dəyişiklik etmiş, həmçinin Argentina və Türkiyədə makroiqtisadi gərginlik, Almaniyada maşınqayırma sektorunda zəifləmə, Çində daha sərt kredit siyasəti kimi neqativ proseslərin nəticəsi olaraq, bu ilin sonuna iqtisadi artım 0,1 faiz bəndi azaldılaraq 3,2% səviyyəsində proqnozlaşdırılmışdır. 2019-cu ilin birinci yarısında Azərbaycan iqtisadiyyatını xarakterizə edən əsas meyillər olaraq iqtisadi artım tempinin sürətlənməsi, neft-qaz sektorunun sürətli artım tempinin bərpa olunması, qeyri-neft sektorunun alt sahələrində yalnız tikinti üzrə real ifadədə azalma qeydə alınması, sosial paketlərin icrasına başlanılması, problemli kreditlərin ödənilməsi üçün əhaliyə kompensasiyalar ödənilməsi; mülayim monetar siyasətin davam etdirilməsi, strateji valyuta ehtiyatlarının artımı, dövlət büdcəsinin xərclərinin gəlirlərini üstələməsi qeyd edilməlidir. İlk olaraq qeyd edilməlidir ki, neftin qiyməti 2019-cu ilin dövlət büdcəsində nəzərdə tutulmuş göstərici (60,0 ABŞ dolları) ilə müqayisədə 6,0 ABŞ dolları və ya 9,8% çox olmuşdur. Hesabat dövründə neftin qiymətinin artımı fonunda Azərbaycan müvafiq razılaşmaya riayət edərək neft ixracını azaltmışdır. 2019-cu ilin yanvar-iyun aylarında Ümumi Daxili Məhsulun (ÜDM) nominal ifadədə həcmi 37825,2 mln. manat təşkil etmişdir və bu, cari il üçün proqnozlaşdırılmış məbləğin 46,2%-nə bərabər olmaqla əvvəlki ilin müvafiq göstəricisindən 2,5% çoxdur. 2019-cu il üçün neft-qaz sektoruna yönəldilən investisiyaların həcmi artımla nəzərdə tutulsa da, hesabat dövründə ötən ilin müvafiq dövrü ilə müqayisədə təxminən 18,6% azalmış, nəticədə isə əsas kapitala yönəldilən investisiyalar 2019-cu ilin hesabat dövründə 5,4% azalaraq nominal ifadədə 6131,6 mln. manata bərabər olmuşdur. Qeyri-neft sektoruna yönəldilən investisiyalar isə ümumilikdə cari il üçün azalma ilə nəzərdə tutulmuş, lakin hesabat dövründə real ifadədə 5,1% artım nümayiş etdirmişdir. Lakin bu artım neft sektoruna istiqamətlənmiş investisiyaların böyük sürətlə azalması fonunda əsas kapitala yönəldilən cəmi investisiyaların azalma meylini neytrallaşdırmaq üçün yetərli olmamışdır. 2019-cu ilin yanvar-iyun aylarında əhalinin gəlirləri nominal ifadədə 27355,8 mln. manat olmuş, ötən ilin müvafiq dövrünə nisbətən 6,6% artmışdır. Gəlirlərin artım tempi inflyasiyanı üstələmiş və real gəlirlər 4,0% artmışdır. Əhali gəlirlərinin artımı sosial paketin reallaşdırılması fonunda əməkhaqqı artımı ilə əlaqəli olmuşdur. Belə ki, cari ilin yanvar-iyun aylarında nominal qiymətləndirmədə 8,2% artan orta aylıq əməkhaqqı real ifadədə 5,6% artmışdır. İxrac 2019-cu ilin 6 ayında 9979,0 mln. ABŞ dolları təşkil etmişdir ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 15,2% çoxdur. Eyni zamanda, qeyd edək ki, hesabat dövrünün ikinci rübündə birinci rübü ilə müqayisədə ixrac 22,5% artmış, 2018-ci ilin birinci və ikinci rübü ilə müqayisədə artımlar müvafiq olaraq 33,7% və 3,5% təşkil etmişdir. Hesabat dövründə 7015,6 mln. ABŞ dolları məbləğində məhsul idxal olunmuşdur və bu, 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 50,5% çoxdur. Cari ilin birinci və ikinci rüblərində idxalın məbləği 2018-ci ilin müvafiq dövrləri ilə müqayisədə 43,1% və 57,1% çoxdur. Hesabat dövründə idxal ikinci rübdə birinci rüblə müqayisədə 23,7% artmışdır. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin məlumatlarına əsasən, 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin 6 ayında idxalın artımında dövlətin payının xüsusilə böyük olduğu müşahidə edilmişdir. İnflyasiya 2019-cu ilin yanvar-iyun aylarında 2018-ci ilin müvafiq ayları ilə müqayisədə 2,5%-ə bərabər olmuşdur. Birinci rüb ərzində istehlak səbəti üzrə qiymət indeksi əvvəlki rübə nisbətən 1,5% artsa da, ikinci rüb ərzində mövsümi amillərlə əlaqədar olaraq nisbətən az, 0,5% artmışdır. Dövr ərzində mövsümi amillərin qiymət artımına azaldıcı təsiri inflyasiyanın qiymətləri dövlət tərəfindən tənzimlənən məhsullar və xidmətlər, həmçinin mövsümi xarakter daşıyan kənd təsərrüfatı məhsulları nəzərə alınmadan hesablanan bazis inflyasiyasından (2,7%) aşağı olması ilə nəticələnmişdir. Ümumilikdə isə, 2018-ci ilin müvafiq dövrləri ilə müqayisədə cari ilin ilk 6 ayında qiymətlər indeksi artım meyilli olmuşdur.

Şəkil 1. 2018-ci ilin müvafiq dövrləri ilə müqayisədə hesabat dövründə inflyasiyanın dinamikası, faizlə




Azərbaycan Respublikasının Mərkəzi Bankı (ARMB) makroiqtisadi göstəricilərin qənaətbəxş olmasına və birrəqəmli inflyasiyaya əsaslanaraq monetar siyasətin mülayimləşməsini davam etdirmiş, cari ilin ilk 6 ayında uçot dərəcəsi növbəti dəfə endirilərək 8,5% səviyyəsində müəyyənləşdirilmişdir. Hesabat dövründə ARMB-nin məlumatlarından aydın olur ki, DNF-nin transfertlərinin tam icra edilməməsinin səbəbi bazarda dollara tələbin kifayət qədər olmaması və Mərkəzi Bankda artıq qalan vəsaiti almamasıdır. Lakin dollar təklifinin ona olan tələbi üstələməsinə və məzənnənin keçirilən valyuta hərraclarında müəyyənləşməsinə baxmayaraq, manatın məzənnəsində möhkəmlənmə meyilləri müşahidə edilməmişdir. Digər tərəfdən bank sistemində manatla pul kütləsinin artıqlığı müşahidə olunmaqdadır. Belə ki, Mərkəzi Bank tərəfindən vəsaitlərin cəlb edilməsi məqsədilə reallaşdırılan depozit hərraclarında orta gəlirliliyin mütəmadi aşağı düşməsinə baxmayaraq, tələb təklifi əhəmiyyətli dərəcədə üstələyir (5-6 dəfə). Daxili valyuta bazarında dollar profisiti olduğu halda, izafi pul kütləsinin sterilizasiyasının həyata keçirilməsi inflyasiya səviyyəsinin qorunması məqsədinə xidmət etməsi ilə izah oluna bilər. Dövlət Neft Fondu (DNF) və Mərkəzi Bankın valyuta ehtiyatlarının həcmi cari ilin 6 ayında 48403,1 mln. ABŞ dolları təşkil etmişdir ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 11,1% çoxdur. Neftin dünya birjalarında qiymətinin əhəmiyyətli artımı fonunda xüsusilə DNF-nin aktivlərinin 6 ay ərzində ötən ilin dekabrı ilə müqayisədə 10,3% artması müşahidə edilmişdir. DNF-nin verdiyi məlumatlara görə, aktivlərin artımı Fondun büdcə gəlirləri, o cümlədən vəsaitlərin idarə edilməsindən əldə edilən gəlirlər hesabına olmuşdur. Ən yüksək gəlirlilik səhm alt portfelində müşahidə olunmaqla, investisiya portfelinin hər bir tərkib aktiv növü üzrə müsbət gəlirlilik qeydə alınmışdır. Belə ki, səhm alt portfeli üzrə ötənilki mənfi gəlirliliyə baxmayaraq (-6,6%), 2019-cu ilin ilk 6 ayı ərzində müvafiq göstərici 13,1% təşkil etmişdir. Dövlət büdcəsinin icrası ilə bağlı ilk olaraq göstərilməlidir ki, 2019-cu ilin dövlət büdcənin gəlir və xərcləri ilin ilk 6 ayında müəyyən edilmiş proqnoz göstəriciləri ilə müqayisədə müvafiq olaraq 92,8% və 100,2% səviyyəsində icra edilmişdir. Eyni zamanda, qeyd edək ki, 2019-cu ilin dövlət büdcəsinin ilin ilk altı ayı profisitlə proqnozlaşdırılmış, hesabat dövrü kəsirlə başa çatmışdır. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə cari ildə dövlət büdcəsinin gəlirləri 635,7 mln. manat və ya 6,4%, xərcləri isə 1426,6 mln. manat və ya 15% çox olmuşdur. Dövlət büdcəsinin gəlirləri üzrə 23168,0 mln. manat məbləğində illik və 11314,6 mln. manat məbləğində yarımillik proqnozlar, müvafiq olaraq 45,3% və 92,8% səviyyəsində yerinə yetirilərək 10496,1 mln. manat məbləğində icra edilmişdir. Dövlət büdcəsinin gəlirlərinin tərkibində yarımillik proqnozlar dövlət vergiləri (vergi və gömrük orqanları üzrə ümumilikdə) üzrə müvafiq olaraq 109,2%, digər gəlirlər üzrə isə 81,8% səviyyəsində yerinə yetirilmişdir. 2019-cu ilin yanvar-iyun ayları ərzində büdcə daxilolmalarının həcmi dövlət vergiləri üzrə 4942,9 mln. manat, digər gəlirlər üzrə isə 5553,2 mln. manat təşkil etməklə, 2018-ci ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 12,9% və 1,3% artmışdır. 2019-cu ilin yanvar-iyun aylarında büdcə gəlirlərinin yığımını təmin edən əsas inzibatçı qurumlar üzrə bölgüdə DNF-nin payı 42,0% təşkil etməklə, əvvəlki illərdə olduğu kimi, yüksək olaraq qalmışdır. 2019-cu ilin nəticələri illik və yarımillik proqnozların əsas mənbələr kimi Vergilər Nazirliyi və Dövlət Gömrük Komitəsi üzrə artıqlaması ilə, qeyri-kommersiya təşkilatlarının kommersiya fəaliyyətindən gəlirləri üzrə əsasən yerinə yetirildiyini, Dövlət Neft Fondundan daxilolmalar üzrə isə kəsirlə icra olunduğunu göstərmişdir. Cari ilin yanvar-iyun ayları ərzində Vergilər Nazirliyi üzrə müəyyən edilmiş 7316,0 mln. manat məbləğində illik və 3339,4 mln. manat məbləğində yarımillik proqnozlar müvafiq olaraq 49,7% və 108,8% səviyyəsində icra olunaraq 3632,8 mln. manat, Dövlət Gömrük Komitəsi üzrə müəyyən edilmiş 3702,0 mln. manat məbləğində illik və 1912,1 mln. manat məbləğində yarımillik proqnozlar müvafiq olaraq 55,8% və 108,0% səviyyəsində icra olunaraq 2065,2 mln. manat, qeyri-kommersiya təşkilatlarının kommersiya fəaliyyətindən gəlirləri üzrə müəyyən edilmiş 684,4 mln. manat məbləğində illik və 322,5 mln. manat məbləğində yarımillik proqnozlar müvafiq olaraq 46,2% və 98,1% səviyyəsində icra olunaraq 316,3 mln. manat, Dövlət Neft Fondu üzrə isə müəyyən edilmiş 11364,3 mln. manat məbləğində illik və 5682,2 mln. manat məbləğində yarımillik proqnozlar müvafiq olaraq 38,8% və 77,7% səviyyəsində icra olunaraq 4413,0 mln. manat məbləğində vəsait dövlət büdcəsinə daxil olmuşdur. Hesabat dövründə dövlət büdcəsinin gəlirləri üzrə ümumi proqnozun icrasında 7,2% səviyyəsində kəsirin yaranması əsasən Dövlət Neft Fondundan daxilolmalar üzrə proqnozun, qeyd olunduğu kimi, 77,7% səviyyəsində və ya 1269,2 mln. manat az yerinə yetirilməsi ilə əlaqədar olmuşdur. Dövlət büdcəsinin gəlirlərinin, o cümlədən Vergilər Nazirliyi xətti ilə təmin olunan gəlirlərin həcmində əvvəlki illə müqayisədə artımların əldə olunması qeyri-neft sahələrindən daxilolmaların hesabına mümkün olmuşdur. Vergilər Nazirliyinin xətti ilə dövlət vergilərinin cari il üzrə müəyyən edilmiş proqnoz göstəricilərinə qarşı icrası istər ümumilikdə, istərsə də əsasən bütün vergi növləri səviyyəsində artıqlaması ilə icra olunmuş, mədən vergisi və Azərbaycan Respublikasının ərazisində istehsal edilərək, daxili istehlaka yönəldilən (topdan satılan) yanacağa yol vergisi müəyyən kəsirlərlə yerinə yetirilmişdir. Hesabat dövründə Vergilər Nazirliyi xətti ilə büdcə gəlirlərinin 69,1%-i qeyri-neft, 30,9%-i isə neft sahələrindən yığımların payına düşmüşdür ki, bu da əvvəlki ilin birinci yarımilliyi ilə müqayisədə xüsusi çəkilərin faiz nisbətini 3,9 faiz bəndi qeyri-neft sektorundan daxilolmaların xeyrinə dəyişmişdir. 2019-cu ilin yanvar-iyun ayları ərzində büdcə daxilolmalarının həcmi neft sektoru üzrə 1121,8 mln. manat, qeyri-neft sektoru üzrə isə 2511,0 mln. manat təşkil etməklə əvvəlki ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 56,0 mln. manat və ya 4,8% azalmış və 306,2 mln. manat və ya 13,9% artmışdır. Ümumilikdə, dövlət büdcəsinin neft sahələrindən gəlirləri 2019-cu ilin birinci yarımilliyində əvvəlki ilin eyni dövrü ilə müqayisədə 251,0 mln. manat və ya 4,3% azalaraq 5534,8 mln. manata enmiş, qeyri-neft sahələrindən gəlirləri isə 841,1 mln. manat və ya 20,6% artaraq 4915,7 mln. manatadək yüksəlmişdir. Hesabat dövründə neft və qeyri-neft sahələrinin gəlirlərdə payları müvafiq olaraq 53,0% və 47,0% təşkil etmişdir ki, bu da 2019-cu il üçün proqnozlaşdırılmış göstəricilərə əsasən uyğundur. Gəlirlərin təhlili ilə bağlı bir faktı qeyd etməliyik ki, 2019-cu ilin yanvar-iyun ayları üzrə dövlət büdcəsi gəlirlərinin hesabatlılığında pul vəsaitlərinin nağd qaydada bank hesablarından çıxarılmasına görə Vergi Məcəlləsinin 220.12-ci maddəsinə uyğun hesablanmalı olan sadələşdirilmiş vergi üzrə büdcəyə daxilolmalar 19,4 mln. manat məbləğində təşkil etmişdir. Bu da nağdlaşdırılmış vəsaitin həcminin təxminən 1,9 mlrd. manat təşkil etməsini deməyə əsas verir. Nağdlaşdırılmış vəsaitin həcminin yüksək olması, eyni zamanda, 2018-ci ilin yanvar-iyun ayları ilə müqayisədə 26,7% artması dövlət büdcəsinin vergi gəlirlərinin yığımı prosesində yayınma risklərinin səviyyəsini göstərməklə yanaşı, ölkə üzrə real sektorda nağdsız əməliyyatların həcminin yüksəldilməsi istiqamətində maneələr yaradır. Pul vəsaitlərinin nağd qaydada bank hesablarından çıxarılmasına görə ödənilən sadələşdirilmiş verginin 2019-cu il üçün proqnozu 2018-ci ilin icrasından təqribən 2 dəfəyə yaxın artıq həcmdə müəyyən edilmişdir ki, bu da ölkə üzrə real sektorda nağdsız əməliyyatların həcminin yüksək olduğunu əks etdirir. Beləliklə də, 2019-cu ilin I yarımilliyinin nəticələri cari ilin sonunadək faktiki icranın daha artıq olacağını deməyə əsas verir. Digər tərəfdən Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi internet səhifəsində yerləşdirilmiş məlumatlara əsasən nağdsız ödəniş infrastrukturunun əsas göstəriciləri üzrə 2019-cu ilin yanvar-iyun ayları ərzində müəyyən artımlar müşahidə olunsa da, göstəricilərin mütləq həcmləri prosesin makroiqtisadi müstəvidə dəyərləndirilməsi üçün hələ ki, qənaətbəxş səviyyəyə çatmamışdır.

Dövlət Gömrük Komitəsi xətti ilə dövlət büdcəsinə təmin edilən gəlirlər üzrə müəyyən edilmiş proqnoz göstəricilərin icrası ümumilikdə və əsas gəlir növləri üzrə artıqlaması ilə təmin edilmiş, eyni zamanda, aksizlər, Azərbaycan Respublikasının ərazisinə idxal olunan yanacağa yol vergisi və ixrac rüsumları üzrə kəsirlər yaranmışdır. Hesabat dövründə komitə xətti ilə dövlət büdcəsinə təmin olunan gəlirlərin əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə artması bilavasitə idxal olunan malların (istər gömrük ödənişlərindən azad olunan, istərsə də gömrük ödənişlərinə cəlb olunan) həcminin artması ilə əlaqədar olmuşdur. Dövlət büdcəsinin altı aylıq icrasında qeyri-kommersiya təşkilatlarının kommersiya fəaliyyətindən gəlirlərinin 57,6%-i büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmaların, 29,6%-i məqsədli büdcə fondlarının daxilolmalarının və 12,8%-i sair daxilolmaların payına düşmüşdür. 2019-cu ilin birinci yarımilliyində 2018-ci ilin eyni dövrü ilə müqayisədə büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar 48,4 mln. manat və ya 36,2%, məqsədli büdcə fondlarının daxilolmaları 47,4 mln. manat və ya 2,0 dəfə, sair daxilolmalar isə 25,8 mln. manat və ya 2,8 dəfə artmışdır.

Şəhər və rayonların yerli gəlirləri hesabat dövründə artıqlaması ilə yerinə yetirilmişdir. Belə ki, cari ilin 6 aylıq dövrü üçün nəzərdə tutulmuş 337,2 mln. manata qarşı yerli gəlirlər 401,4 mln. manat məbləğində və ya 119,0%, o cümlədən Bakı şəhəri üzrə 109,5 mln. manata qarşı 119,3 mln. manat və ya 108,9% səviyyəsində icra edilmişdir. 4 rayon (Biləsuvar, Zaqatala, Zəngilan, Xızı) istisna olmaqla, digər şəhər və rayonlar üzrə icra məbləği hesabat dövrünün proqnozunu üstələmişdir. Ən yüksək icra səviyyəsi (3,44 dəfə çox) Göygöl rayonu üzrə müşahidə edilmişdir. Belə ki, bu rayon üzrə yarım il ərzində icra edilmiş yerli gəlirlər 6515,5 mln. manat təşkil etmişdir ki, bu da 2019-cu il üçün nəzərdə tutulmuş cəmi məbləğdən 1,6 dəfə çoxdur. 2019-cu ilin ilk altı ayında dövlət büdcəsinin xərcləri 10951,0 mln. manat məbləğində icra edilmişdir ki, bu da il üçün nəzərdə tutulmuş büdcə xərclərinin 43,5%-nə, altı ay üçün proqnozlaşdırılmış (təsdiq edilmiş bölgüyə əsasən) xərclərin isə 100,2%- nə bərabərdir.

2019-cu ilin ilk altı ayında büdcə xərclərinin funksional təsnifat üzrə strukturunda hesabat dövrü üçün bölmələrin iştirak payları il üçün proqnozlaşdırılmış müvafiq göstəricilərə uyğun olmuş, hesabat dövründə daha böyük xüsusi çəki "Sənaye, tikinti və faydalı qazıntılar" (21,9%), "Ümumi dövlət xidmətləri" (18,3%), "Müdafiə" (14,6%) və "Sosial müdafiə və sosial təminat" (13,6%) bölmələrinə aid olmuşdur. Ümumilikdə cari ilin yanvar-iyun aylarında icra edilmiş dövlət büdcəsinin xərcləri ötən ilin müvafiq göstəriciləri ilə müqayisədə funksional təsnifatın 11 bölməsi üzrə artmış, 3 bölməsi üzrə azalmışdır. Qeyd edək ki, təsdiq edilmiş bölgüyə əsasən cari ilin 6 aylıq dövrü üçün funksional təsnifatının bölmələri üzrə ilkin təyinat 43,39% səviyyəsində müəyyənləşdirilmiş, icra prosesində funksional təsnifatın 10 bölməsində dəyişikliklər aparılaraq proqnoz nisbətləri 2 bölmə üzrə artırılmış və 8 bölmə üzrə azaldılmışdır. Proqnozla müqayisədə 12 bölmə üzrə ümumilikdə 304,0 mln. manat məbləğində vəsait icra edilməmiş və bu məbləğdə ən yüksək paya "Kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq, ovçuluq və ətraf mühitin mühafizəsi" (24,6%) bölməsi malik olmuşdur. Xarici valyutada aparılan əməliyyatların həcmi 2019-cu il üzrə proqnozlaşdırılan dövlət büdcəsi xərclərinin 15,9%-ni təşkil etmişdir. Məlumat üçün qeyd edək ki, 2015-ci ildə dövlət büdcəsindən təkcə dövlət borcuna xidmətlə bağlı xərclər 704,4 milyon manat təşkil etmişdirsə, 2018-ci ildə bu məbləğ 2235,6 milyon manata bərabər olmuş, başqa sözlə, 3 il ərzində dövlət borcuna xidmətlərlə bağlı xərclər 3,2 dəfə artmışdır. Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondu tərəfindən ödənilmiş vəsaitlərin hər bir təşkilat üzrə qaytarılması ilə bağlı məlumatlar dövlət müəssisələri üzrə 2019-2024-cü illər üzrə dövlət büdcəsinə 2960,8 mln.manat həcmində vəsait ödəniləcəyinin nəzərdə tutulduğunu göstərir. Son illər üzrə bu sahədə müşahidə olunan meyillər dövlət müəssisələrinin həm dövlət zəmanəti ilə, həm də zəmanət olmadan götürdükləri borc öhdəliklərini ödəyə bilməməsi hallarının daha çox müşahidə olunduğunu, son nəticədə bu öhdəliklərin bu və digər yollarla dövlət büdcəsi hesabına ödənildiyini göstərir. Təqdim olunan məlumatlara əsasən, 2019-cu ildə Dövlət İnvestisiya Proqramının icrasını təmin etmək məqsədilə müxtəlif maliyyə mənbələri hesabına ümumilikdə 6261,6 mln. manat vəsait nəzərdə tutulmuş, 2019-cu ilin I yarımilliyində cəmi 2195,4 mln. manat (35,1%) vəsait istifadə olunmuşdur. Bu göstərici son illərin müvafiq göstəricilərindən aşağıdır. Əvvəlki illərdən fərqli olaraq 2019-cu ildə texniki-iqtisadi əsaslandırmaların, layihə-smeta sənədlərinin hazırlanması, məsləhətçi şirkətlərin, investisiya layihələrinin qiymətləndirilməsi və monitorinqi üçün ekspertlərin cəlb edilməsi məqsədilə 10,0 mln. manat nəzərdə tutulmuş, bu vəsaitdən 86,7 min manat (0,9%) maliyyələşmə aparılmışdır. Ayrılmış vəsaitin 8,9 mln. manatının bölgüsü aparılaraq bir sıra sifarişçi təşkilatlar tərəfindən məsləhətçi şirkətlərinin cəlb edilməsi və layihə-smeta sənədlərinin hazırlanmasına yönəldilməsi nəzərdə tutulur. 2019-cu ilin I yarımilliyi ərzində bir sıra yeni layihələrə vəsait ayrılıb Dövlət İnvestisiya Proqramına daxil edilsə də, bu layihələr üzrə texniki iqtisadi əsaslandırma sənədlərinin hazırlanması üçün vəsait nəzərdə tutulmamışdır. Əksər layihələr üzrə 01.07.2019-cu il tarixinə icra faizinin aşağı olması ilə yanaşı, 755,6 mln. manat dəyərində bir sıra layihələr üzrə ümumiyyətlə maliyyələşmə aparılmamışdır. Qeyd olunanlarla yanaşı, 2019-cu ilin I yarımilliyində 67 sərəncamla dürüstləşmələr aparılaraq müvafiq bölgü və yerdəyişmələr həyata keçirilmişdir.

Hesabat dövründə ən yüksək icra səviyyəsi 167,7%-lə "Faizlər üzrə ödənişlər" bölməsində, ən aşağı icra səviyyəsi isə 71,1%-lə "Malların (işlərin və xidmətlərin) satın alınması" bölməsində müşahidə edilmişdir. 2019-cu ilin altı ayında büdcə təşkilatlarının iş və xidmətlərin göstərilməsindən, məhsul satışından və digər fəaliyyətlərindən əldə etdikləri gəlirlərdən formalaşan büdcədənkənar vəsaitlər üzrə xərcləri 175,8 mln. manat məbləğində icra edilmişdir. Bu il üçün nəzərdə tutulmuş büdcədənkənar xərclərin 29,8%-ni, 6 aylıq dövr üçün təsdiq edilmiş büdcədənkənar xərclər üzrə smetanın isə 68,7%-ni təşkil edir. Hesabat dövrü üçün büdcədənkənar xərclərin nəzərdə tutulmuş (43,39%) və faktiki icra (29,79%) səviyyələri arasında fərq 13,6 faiz bəndi təşkil etməklə əhəmiyyətli olmuşdur.

Şəhər və rayonların yerli xərcləri ümumilikdə 365,7 mln. manat proqnoza qarşı 305,2 mln. manat və ya 83,5%, o cümlədən Bakı şəhəri üzrə 104,1 mln. manata qarşı 83,3 mln. manat və ya 80,0% səviyyəsində icra edilmişdir. Təqdim edilmiş məlumatların təhlili göstərir ki, şəhərlər üzrə icra səviyyəsi ümumlikdə 81,0% təşkil edir ki, bununda əsas səbəbi Naftalan (79,0%), Yevlax (78,9%), Gəncə (77,3%), və Şəki (74,7%) şəhərlərində xərclərin icra səviyyəsinin aşağı olmasıdır. Şəhərlər üzrə yerli xərclərin icrasında ən yüksək icra səviyyəsi Lənkəranda (102,1%) müşahidə edilmişdir. 01.01.2019-01.07.2019-cu il tarixlərində keçirilmiş 6404 sayda satınalma 3110,2 mln. manat məbləğində vəsaiti əhatə etmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə həm say, həm də məbləğ baxımından çoxdur. Belə ki, cari ilin birinci yarımilində 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 417 sayda və ya 7,0% çox satınalma keçirilmiş, məbləğ baxımından isə bu, 151,9 mln. manat və ya 5,1% çox olmuşdur. Artım əsasən açıq tender və təkliflər sorğusu metodu ilə keçirilən satınalmalarda müşahidə edilmişdir. Ən böyük azalma isə 120 sayda və 46,2 mln. manat olmaqla bir mənbədən satınalmalarda müşahidə edilmişdir. Bir mənbədən satınalma prosedurlarında icra edilmiş vəsaitdə 36,1%-lə ən yüksək xüsusi çəkiyə "təcili tələbat"la keçirilən satınalmalar malik olmuşdur.

Azərbaycan Respublikası Hesablama Palatasına təqdim edilmiş hesabatlara əsasən 31.12.2018-ci il tarixi ilə müqayisədə cari ilin 6 ayı ərzində debitor borcların məbləği 524,0 mln. manat və ya 26,9% artaraq 2472,0 mln. manat təşkil etmişdir. Debitor borclarda qeyd edilən artım məbləği müvafiq dövrdə icra edilmiş büdcə xərclərinin 4,8%-nə bərabərdir. Dövlət büdcəsinin kəsirinin maliyyələşməsinə 6 ay üzrə yönəldilən məbləğ 545,4 mln. manat təşkil etmişdir. 2019-cu ilin 6 ayında dövlət əmlakının özəlləşdirilməsindən daxil olan vəsait 40,9 mln. manat (illik proqnozun 51,1%-ni) təşkil etmişdir, 6 ay üçün müəyyən olunmuş tapşırıq 4,0 mln. manat və ya 10,8% çox icra olunmuşdur. 2018-ci ilin 6 ayı üzrə müvafiq göstərici ilə (53,4 mln. manat) müqayisədə özəlləşdirmədən daxilolmalar 12,6 mln. manat və ya 23,5% az olmuşdur. Dövlət büdcəsinin kəsirinin maliyyələşdirilməsi üçün digər mənbələrdən daxilolmalar (daxili və xarici borclanma, 2019-cu ilin 1 yanvar tarixinə dövlət büdcəsinin vahid xəzinə hesabının qalığı) 2019-cu il dövlət büdcəsində 1942,0 mln. manat, 2019-cu ilin 6 ayı üzrə 106,4 mln. manat məbləğində nəzərdə tutulmuş, birinci yarımillikdə 259,9 mln. manat vəsait daxil olmuşdur ki, bundan 102,5 mln. manat daxili borclanma üzrə dövlət istiqrazlarının satışından, 157,4 mln. manat vahid xəzinə hesabının qalığından ibarət olmuşdur. Sərbəst qalığın ilin əvvəli ilə müqayisədə 157,4 mln. manat məbləğində azalması ilə yanaşı, digər tərəfdən, daxili dövlət borclanmasının həcmi əlavə olaraq 102,5 mln. manat artmışdır. Daxili dövlət borcunun artımı isə, öz növbəsində, dövlət istiqrazları üzrə borcun məbləğinin 856,1 mln. manat və 6 ay ərzində ödənilən faiz və diskont xərclərinin 45,1 mln. manat olmasına şərait yaratmışdır. Ümumiyyətlə, hesab edirik ki, cari ilin sonuna vahid xəzinə hesabının qalığının artımı gözlənilir.

Təqdim olunmuş operativ məlumatlara əsasən, 1 iyul 2019-cu il tarixinə beynəlxalq maliyyə-bank qurumları və digər kredit təşkilatları ilə ümumilikdə 12,2 mlrd. ABŞ dolları məbləğində kredit sazişləri imzalanmışdır ki, bu, 1 yanvar 2019-cu il tarixə vəziyyətlə müqayisədə 0,1 mlrd. ABŞ dolları və ya 0,8% azdır. Həmin kredit sazişləri əsasında istifadə olunmuş kreditlər üzrə Azərbaycan Respublikasının xarici dövlət borcunun ümumi məbləği 2019-cu ilin 6 ayı ərzində 7,1 mln. ABŞ dolları və ya 0,08% azalaraq 8920,0 mln. ABŞ dolları (şərti öhdəliklər daxil olmaqla) təşkil etmişdir. Bu meyil ölkə başçısı tərəfindən xarici borcun məbləğinin azaldılması istiqamətində müəyyən edilmiş hədəflərə uyğundur. İmzalanmış sazişlər üzrə istifadə olunmuş və dövlət borcu hesab edilən kreditlərə görə xarici dövlət borcu ümumi daxili məhsulun 19,0%-ni təşkil etmiş, adambaşına düşən xarici dövlət borcu ilin əvvəli ilə müqayisədə 4,2 ABŞ dolları və ya 0,9% azalaraq 1 iyul 2019-cu il tarixinə 890,8 ABŞ dolları təşkil etmişdir. 01 iyul 2019-cu il tarixinə operativ məlumatlara əsasən dövlətin daxili borcu 1346,1 mln. manat (şərti öhdəliklər daxil olmaqla) təşkil etmişdir ki, bu, 01 yanvar 2019-cu il tarixinə olan məbləğlə müqayisədə 25,9 mln. manat və ya 2,0% çoxdur. "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin icrası haqqında" qanuna əsasən, 2019-cu il 1 yanvar tarixinə dövlət büdcəsinin vahid xəzinə hesabında qalığı 872,4 mln. manat təşkil etmiş, 2019-cu ilin 6 ayı ərzində 214,5 mln. manat, yəni 24,6% azalaraq 2019-cu il 30 iyun tarixinə 657,9 mln. manat olmuşdur. Beləliklə, 2019-cu ilin 6 ayı üzrə dövlət büdcəsinin icrası vəziyyəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən müəyyən edilmiş məqsədlərə hədəflənməklə vəsaitlərin müvafiq qaydada icra edildiyini qeyd etmək imkanı verir.

# Qubadlının işğalından 26 il ötür



Azərbaycanın dilbər guşələrindən olan Qubadlı rayonunun erməni silahlı birləşmələri tərəfindən işğalından 26 il ötür. Erməni qəsbkarlarına qarşı əsl mətanətlə sinə gərən Qubadlı rayonu 1993-cü ilin avqustun 31-də işğala məruz qalıb.

Xatırladaq ki, Qubadlı rayon olaraq 1933-cü ildə inzibati status əldə edib. 1963-cü ildə ərazisi Zəngilan rayonu ilə birləşdirilsə də, bir il keçməmiş yenidən ayrıca rayon adı alıb. 802 kv.km ərazisi olan bu dağ rayonunun mərkəzi Qubadlı şəhəridir. Bərgüşad çayının hər iki sahilində yerləşən Qubadlının əhalisi keçirilən son siyahıyaalmada 5604 nəfər kimi göstərilib. Ən əhəmiyyətli kəndləri Mahmudlu, Xəndək, Xanlıq, Muradxanlı, Yuxarı Mollu kəndləridir. Hazırda işğal altında olan rayonun 94 kəndi və bir şəhəri var. İşğala qədər rayon əhalisi əsasən kənd təsərrüfatı və heyvandarlıqla məşğul olurdu.

Rayonun Ermənistanla 120, Xocavənd rayonu ilə 42 km-lik sərhəd zolağı var. Eyni zamanda, rayon Laçın, Cəbrayıl və Zəngilan rayonları ilə həmsərhəddir. İşğala qədər Qubadlının iqtisadiyyatının əsasını taxılçılıq, heyvandarlıq, tütünçülük, baramaçılıq və üzümçülük təşkil edirdi və bunlarla yanaşı, rayonda 31 süd-əmtəə ferması fəaliyyət göstərirdi. Rayonda 2 üzümün ilkin emalı və yağ-pendir emalı zavodu vardı. Rayonun asfalt zavodu təkcə Qubadlıya deyil, eyni zamanda, qonşu rayonlara da xidmət edirdi. İnkubator-quşçuluq fabriki və balıqyetişdirmə vətəgəsi rayon əhalisini ət və balıq məhsullarıyla təmin edirdi. Ümumilikdə, Qubadlı rayonunda 62 idarə və müəssisə fəaliyyət göstərirdi.

Eyni zamanda, işğala qədər Qubadlı rayonunda 21 orta, 15 səkkizillik, 15 ibtidai məktəb fəaliyyət göstərirdi. Bundan əlavə, bir orta texniki peşə və iki musiqi məktəbi də gənc nəslin təlim-tərbiyəsində xüsusi rol oynayırdı. Məktəbəqədər müəssisələrin sayı 7 idi. Bu təlim-tərbiyə və təhsil müəssisələrində 1280 nəfər müəllim çalışırdı. 5852 nəfər şagird ümumtəhsil məktəblərində təhsil alırdı. Məktəbəqədər müəssisələrdə 272 azyaşlı tərbiyə olunurdu.

Rayonda yaşı qədim dövrlərə söykənən bir çox tarixi yerlər də vardı. IV əsrə aid "Gavur dərəsi"ndəki ibadətgah, V əsrin yadigarları "Qalalı" və "Göyqala" abidələri, XIV əsrdə tikilmiş "Dəmirçilər Türbəsi", Hacı Bədəl körpüsü, Laləzar körpüsü, eləcə də, Əyin, Yusifbəyli, Seytas, Qarağaclı, Xocamsaxlı kəndlərindəki digər tarixi abidələr də işğal zonasında qalıb.

Qubadlı rayonunun ərazisində ehtiyatları 6247 min m3 və mişar daşı üçün yararlı, istismara cəlb olunmuş Hacılı tuf, ehtiyatları 990 min m3 olan tikintiyə yararlı Xanlıq kəndində yerləşən gil, ehtiyatları 1,1 min ton olan Eyvazlı bəzək-əlvan (əqiq) və Həkəri çayı sahilində ehtiyatları 84 min m3/gün olan yeraltı şirin su yataqları var idi...

Qubadlı rayonunun sakinləri ötən əsrin 80-ci illərinin sonlarından başlayaraq işğalın son günlərinə qədər düşmənlə qəhrəmancasına döyüşüblər və doğma yurdlarını var qüvvələri ilə qoruyublar. Lakin AXC-"Müsavat" cütlüyünün iradəsizliyi və səriştəsizliyi nəticəsində Cəbrayıl və Füzulinin işğalından sonra Qubadlı tamamilə təkləndi və müdafiəsiz qaldı. Beləliklə, 1993-cü il avqustun 30-da erməni hərbi birləşmələri yalnız mülki əhalinin qoruduğu Gəyən zonası istiqamətindən güclü hərbi texnikanın müşayiəti ilə hücuma keçdi. Əsas zərbə Xanlıq istiqamətinə göndərilmişdi. Qeyri-bərabər döyüşdə xanlıqlılar nə qədər fədakarlıqla döyüşsələr də, erməni tankları kəndə soxuldu. Həkəri çayı boyunca Muradxanlı, Balasoltanlı, Xocik istiqamətində rayona soxulan erməni birləşmələri kəndləri yandırdı, dinc əhaliyə divan tutdular. Erməni hərbi birləşmələri ilə üz-üzə qalan mülki əhali məcburiyyət üzündən rayonu tərk etməli oldu. Avqustun 31-də Qubadlı bütünlükdə işğal edildi. Qeyd edək ki, torpaqlarımızın qorunması uğrunda mübarizədə 238 nəfər Qubadlı sakini qəhrəmancasına şəhid olub. Yüz nəfərə qədər insan itkin düşüb və girov götürülüb. Yüzlərlə döyüşçü və mülki əhali yaralanıb, əlil olub. Əhalinin yurd-yuvası talanıb, 94 kənd və Qubadlı şəhəri yerlə yeksan edilib. Döyüşlərdə qəhrəmanlıq göstərən 9 nəfər qubadlılı sonralar Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb...

Qubadlının qaçqın düşmüş, öz ev-eşiyindən didərgin salınmış əhalisi 26 ildir ki, respublikamızın 42 şəhər və rayonunda məskunlaşıb. Dövlətimiz hər zaman əhalinin sosial problemlərinin həlli istiqamətində işlər görür. Eyni zamanda, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan qaçqın və məcburi köçkünlərimizə dövlət qayğısı siyasəti bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması və məşğulluqlarının artırılması ilə bağlı Dövlət Proqramının qəbulu bu mənada əsaslı nəticələrə gətirib çıxarıb.

Bir sözlə, Prezident İlham Əliyev hər zaman digər qaçqın və məcburi köçkün soydaşlarımız kimi qubadlılıların da problemlərinin həlli ilə yaxından maraqlanır, onların sosial vəziyyətlərinin yüksəldilməsi, yaşayış təminatının yaxşılaşdırılmasını diqqət mərkəzində saxlayır. Onlar əmindirlər ki, dövlətimizin başçısı İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində doğma torpaqlarımız tezliklə işğaldan azad ediləcək.

**Pərviz SADAYOĞLU**

# Nikol Paşinyanın bəyanatı danışıqlar prosesinə ciddi zərbədir

*Ekspertlər hesab edirlər ki, bundan sonra danışıqlar prosesinin gələcəyi barədə suala ATƏT-in Minsk qrupunun həmsədrləri cavab verməlidirlər*



**Sevinc Fətəliyeva**: Beynəlxalq ictimaiyyət Ermənistana özünü cəzasızlıq şəraitində hiss etməsinə imkan verməməlidir



**Aydın Hüseynov**: Dünya ictimaiyyəti Ermənistana öz yerini göstərməlidir

Məlum olduğu kimi, işğalçı Ermənistan Dağlıq Qarabağ probleminin həlli istiqamətində aparılan danışıqlar prosesinə hər zaman zərbə vurmağa çalışır. Ermənistanın baş naziri Nikol Paşinyanın 2019-cu il avqustun 5-də Xankəndiyə qanunsuz səfəri zamanı "Qarabağ - Ermənistandır və vəssalam" açıqlaması və Ermənistanla Dağlıq Qarabağın birləşdirilməsini nəzərdə tutan "miatsum" deməsi Ermənistanın əsl məqsədinin işğalçılıqdan başqa bir şey olmadığını göstərir. Bundan əvvəl isə Ermənistanın Dövlət Təhlükəsizlik Xidmətinin rəhbəri və müdafiə naziri "Azərbaycana bir qarış da torpaq qaytarmamaq", "yeni ərazilər üçün yeni müharibə" kimi məsuliyyətsiz və təxribatçı açıqlamalarla çıxış etmişdilər. Bütün bunlar Ermənistanın işğalçı mahiyyətini aydın şəkildə təsdiqləyir.

Məsələ ilə bağlı Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, Yeni Azərbaycan Partiyasının (YAP) Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva deyib ki, indiyə qədər Ermənistan tərəfi hərbi işğal və anneksiya siyasətinin beynəlxalq siyasi-hüquqi və mənəvi məsuliyyətini dərk edərək işğalçılıq siyasətini gizlədir və onu Dağlıq Qarabağın erməni əhalisinin öz müqəddəratını təyin etmək formasında pərdələməyə çalışır, müxtəlif bəhanələrə əl atırdı. N.Paşinyan və Ermənistanın digər yüksəkvəzifəli şəxslərinin məlum bəyanatları bütövlükdə Ermənistanın dövlət səviyyəsində işğalçılıq siyasəti yürütməsinin və buna görə Ermənistanın beynəlxalq hüquqi məsuliyyət daşımasının sübutudur. S.Fətəliyeva bildirib ki, Azərbaycanın işğal olunmuş ərazilərinin ilhaqına çağırış ilə Ermənistan beynəlxalq hüququn norma və prinsiplərini, BMT Nizamnaməsini, Helsinki Yekun Aktını ayaq altına atır və beynəlxalq ictimaiyyətə, xüsusilə münaqişənin danışıqlar yolu ilə həllinə məsul olan ATƏT-in Minsk qrupunun həmsədrlərinə total hörmətsizlik nümayiş etdirir. Onun sözlərinə görə, Ermənistan ATƏT-in Minsk qrupunun vasitəçiliyi altında ciddi danışıqlar aparmaq əvəzinə, bütün mümkün vasitələrlə danışıqlar prosesini bloklayır, münaqişənin həllindən yayınır və işğalı, etnik təmizləmənin nəticələrini davam etdirmək, status-kvonu saxlamaq üçün vaxt qazanmağa çalışır: **"Paşinyanın bəyanatı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçilik etdiyi danışıqlar prosesinə ciddi zərbədir. Bundan sonra danışıqlar prosesinin gələcəyi barədə suala ATƏT-in Minsk qrupunun həmsədrləri cavab verməlidirlər".**

Deputat qeyd edib ki, N.Paşinyanın son bəyanatı Azərbaycanın ərazi bütövlüyünə qarşı rəsmi olaraq iddianın irəli sürülməsi və açıq-aşkar müharibəyə təhrikdir. Ermənistan bu təxribatçı və destruktiv açıqlama ilə regionu yeni təhlükə və risklərlə üzbəüz qoyur və ölkədaxili problemlərdən yayınmaq üçün qəsdən vəziyyəti gərginləşdirir.

**"Ermənistan rəhbərliyi açıq-aşkar sübut edir ki, Ermənistanın danışıqlar prosesində iştirakı riyakarlıq və beynəlxalq ictimaiyyəti aldatmaqdan başqa bir şey olmamışdır. Ona görə də beynəlxalq ictimaiyyət Ermənistana özünü cəzasızlıq şəraitində hiss etməsinə imkan verməməli, Ermənistan rəsmilərinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü kobud surətdə pozan məsuliyyətsiz bəyanatlarını və addımlarını pisləməli, onu bu yoldan çəkindirməli, münaqişənin sülh yolu ilə BMT Nizamnaməsi, Helsinki Yekun Aktı və BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələr əsasında həlli üzrə danışıqlar prosesinə məcbur etməlidir"**, - deyə S.Fətəliyeva vurğulayıb.

**"Ermənistanın baş naziri Nikol Paşinyan davranışları və sərsəm bəyanatları ilə özünü gülünc vəziyyətə salır. Bununla o, qeyri-ciddi siyasətçi və naşı dövlət rəhbəri olduğunu hər gün bir daha nümayiş etdirir".** Bu fikirləri isə Milli Məclisin deputatı, YAP Siyasi Şurasının üzvü Aydın Hüseynov deyib. A.Hüseynov bildirib ki, N.Paşinyan hələ də mitinq, küçə eyforiyası və düşüncəsi ilə hərəkət edərək siyasət və dövlət adamı olduğunu anlaya bilmir. Onun sözlərinə görə, hər zaman bir-biri ilə ziddiyyət təşkil edən açıqlamalar verən baş nazir tamamilə özünü itirib: **"O, pafoslu, reallıqdan uzaq vədlərlə hakimiyyətə yiyələndiyi Ermənistanda əhaliyə verdiyi vədləri yerinə yetirə bilmədikcə və bunun nəticəsi olaraq vəziyyəti gündən-günə çətinləşdikcə ağılsız bəyanatlar verməyə məcbur olur. Düşdüyü vəziyyətdən çıxmaq, itirdiyi nüfuzunu bərpa etmək üçün özündən əvvəlki Ermənistan rəhbərlərinin - koçaryanların, sarkisyanların belə ağlına gəlməyən ən avantürist bəyanatları səsləndirir və həm özünü, həm də ölkəsini uçuruma doğru aparır. Onun "Qarabağ Ermənistandır" kimi sərsəm bəyanatları münaqişənin sülh yolu ilə həlli prosesinə maneə yaradır. Gah deyir ki, münaqişənin Ermənistana aidiyyəti yoxdur, bu problem Azərbaycanla Qarabağ erməniləri arasındadır, gah deyir ki, format dəyişikliyi olmalıdır, Qarabağ erməniləri danışıqlarda tərəf kimi iştirak etməlidir, gah da deyir ki, Qarabağ Ermənistanındır, Ermənistana birləşdirilməlidir və sair. Çox təəssüf ki, Paşinyanın bu cür təxribatçı bəyanatları və addımları ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən qulaqardına vurulur. Bütün bunlar, təbii ki, işğaldan əziyyət çəkən Azərbaycan xalqında haqlı olaraq ciddi narazılıqlar yaradır. Azərbaycan xalqı və dövləti Ermənistanın işğalçı, təxribatçı siyasətinə son qoyulmasını, Minsk qrupunun həmsədrlərinin sözdən işə keçərək Ermənistanın sülhə məcbur edilməsini bir tələb kimi qarşıya qoyur. Biz haqqımızı tələb edirik. Heç kəsdən heç nə istəmirik. Dünya ictimaiyyəti, xüsusilə beynəlxalq təşkilatlar Ermənistana öz yerini göstərməlidir. Ermənistan Azərbaycan ərazilərindən geri çəkilməyə məcbur edilməlidir".**

Millət vəkili qeyd edib ki, əgər Ermənistan rəhbərliyinin, Paşinyanın bir balaca düşünmək qabiliyyəti olsaydı, özünü də, xalqını da, dövlətini də uçuruma aparmazdı: **"Onlar birdəfəlik bilməlidirlər ki, Qarabağ Azərbaycanındır. Kimsə bu gerçəkliyi dəyişdirə bilməz".**

**Nardar BAYRAMLI**

# Tovuz məktəbinin qürurlu anı...

*Tovuz rayonu Fariz Hüseynov adına Qaraxanlı kənd tam orta məktəbinin 11 A sinfinin 23 şagirdinin hamısı tələbə adını qazanıb*



Xəbər verildiyi kimi, Dövlət İmtahan Mərkəzi (DİM) 2019/2020-ci tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə yerləşdirmənin nəticələrini elan edib. Tovuz rayonu Fariz Hüseynov adına Qaraxanlı kənd tam orta məktəbinin məzunları bu il rekord göstərici qazanıblar. Belə ki, məktəbin 11 A sinfinin 23 şagirdinin hamısı tələbə adını qazanıblar.

Təbii ki, regionlarımızda yerləşən məktəblərin belə bir uğura imza atması sevindirici olmaqla yanaşı, həm də həmin təhsil müəssisələrində tədrisin keyfiyyətli təşkilinin göstəricisidir. Elə F.Hüseynov adına Qaraxanlı kənd tam orta məktəbin şagirdlərinin qazandığı uğur da bu amillə sıx bağlıdır. Məktəbin direktoru Ceyran Məmmədova qəzetimizə açıqlamasında bildirib ki, hazırda məktəbdə 408 şagird təhsil alır, 75 müəllim fəaliyyət göstərir. Təhsil ocağı qabaqcıl məktəblər sırasına daxil olub.

Direktorun sözlərinə görə, məktəb istər rayon, istərsə də respublika səviyyəsində müsbət göstəriciləri ilə seçilir: **"Məktəbimiz hər zaman öz nizam-intizamı, şagirdlərin dərsə davamiyyəti və ən əsası, təhsilin keyfiyyətinə görə öndə olub. Bu mənada, məktəbimizin yetirmələrinin yüksək nəticələr əldə etmələri təsadüfi deyil. Hər il şagirdlərimizin bir neçəsi yuxarı bal toplayıb. Builki göstərici isə daha yüksəkdir".**

C.Məmmədova adıçəkilən sinifdə 23 şagirdin təhsil aldığını və sinif üzrə ümumi bilik səviyyəsinin çox yüksək olduğunu dilə gətirib: **"Şagirdlərimizin yüksək nəticələr əldə edəcəyinə şübhəmiz yox idi. Müəllimlərimizin, valideynlərin tələbkarlığı və övladlarının təhsilinə göstərdikləri diqqət bu uğurun qazanılmasında böyük rol oynayıb".**

Sonda direktor tələbə adını qazanan gəncləri təbrik edərək, onlara təhsildə və gələcək həyatda uğurlar diləyib, yüksək bilikli mütəxəssis kimi yetişməyi və Vətənə ləyaqətlə xidmət göstərməyi tövsiyə edib.

11 A sinfinin sinif rəhbəri və kimya müəllimi Namilə Babayeva da bu nəticəni gözlədiklərini diqqətə çatdırıb. Bildirib ki, texniki və təbiət təmayüllü sinifdə 27 şagird təhsil alıb. Şagirdlərin hamısı tələbə adını qazanaraq respublikanın nüfuzlu ali təhsil müəssisələrinə daxil olub. Onun sözlərinə görə, bu, illərlə çəkilən zəhmətin nəticəsidir: **"İstər valideynlər, istər məktəb rəhbərliyi, istərsə də müəllim kollektivi şagirdlərin keyfiyyətli təhsil almaları üçün bütün güclərini səfərbər edirlər. Ümumiyyətlə, bizim məktəbimiz həm təhsil səviyyəsinə, həm də nizam-intizamına görə müsbət mənada dəyərləndirilir, seçilir. Çox sevinirik ki, nəticə də gözəl oldu. Şagirdlərimizin hər biri ümidləri doğrultdu".**

Yeri gəlmişkən, yüksək bal toplayan abituriyentlərin də fikirlərini öyrəndik.

Dövlət İmtahan Mərkəzinin keçirdiyi imtahanlarda 644 bal toplamış Toğru Nəsirli ADA Universitetinin kompüter mühəndisliyi fakültəsinə daxil olub. Həmsöhbətimiz ümidləri doğrultduğu üçün özünü çox xoşbəxt hiss etdiyini, belə bir nəticəyə yalnız zəhmət nəticəsində nail olunduğunu deyir: **"İmtahanlarda yüksək nəticələr qazanmaq istəyən abituriyentlərə müntəzəm çalışmağı məsləhət görürəm. Müəllimlərin tapşırıqlarını dəqiq yerinə yetirmək, yüksək bal toplamağa can atmaq lazımdır. Ən əsası isə, məktəb illərində yaxşı oxuyaraq təməli möhkəm qoymaq lazımdır ki, sonrakı hazırlıq dövrü daha asan olsun. Gələcəyin mühəndisi olmaq və insanlara layiqli xidmət etmək istəyirəm. Bir sözlə, bu göstərici mənim üçün, sadəcə, uğurun başlanğıcıdır".**

Həmsöhbətimiz onu da bildirdi ki, dövlətimizin təhsilə göstərdiyi diqqət və qayğı sayəsində təhsildə yüksək uğura nail olan gənclərin sayı artmaqdadır.

Həmin qaliblər siyahısına adını yazdıranlardan biri də Minə Babaşzadədir. 607 bal toplayan Minə Azərbaycan Tibb Universitetinin müalicə işi fakültəsinə daxil olub. Minə sinfinin uğurunu bizimlə belə bölüşüb: **"Sinfimizin bütün şagirdləri çalışqan olub. Uşaqlıqdan arzum həkim olmaq idi. Bu sahə üzrə biliklərimi uğurla tətbiq edərək həyatda öz yerini tapmış və təsdiqləmiş bir həkim olmaq istərdim. Növbəti il imtahan həyəcanını yaşayacaq abituriyentlərə demək istərdim ki, sistemli və davamlı olaraq çalışsınlar, yuxu rejimini isə pozmasınlar. Ən əsası isə, özlərinə inansınlar. Əslində, xırda nüans kimi görünsə də, imtahan zamanı düzgün vaxt bölgüsü çox önəmli faktordur. Bundan sonra da böyük hədəflərim var".**

Qeyd edək ki, bu il Tovuzda ümumilikdə 1493 nəfər şagird orta məktəbi bitirib. Onlaradan 856 nəfəri DİM-in təşkil etdiyi imtahanlatrda iştirak üçün sənəd verib. Qəbul olanların sayı isə 606 nəfərdir. Onlardan 19 nəfəri 600-dən, 98 nəfəri isə 500-dən yuxarı bal toplayıb.

**Müşfiqə BAYRAMLI**

# Əli Kərimli dağıdıcı təfəkküründən əl çəkmir

*AXCP sədri terror çağırışı edənlərdən "məsləhət"lərini əsirgəmir*

Yerləşdiyi Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycanda bütün sahələrin paralel inkişafı təmin edilir. Ölkəmiz iqtisadi qüdrətini artırmaqla yanaşı, demokratik inkişaf yoluna da hər zaman sədaqət nümayiş etdirib. Ümumiyyətlə, hüquqi dövlət olan Azərbaycanda qanunun aliliyi təmin edilir, demokratik dəyərlərə hörmətlə yanaşılır. Məhz bunun nəticəsidir ki, kataklizmlərlə dolu dünyada Azərbaycan sabitlik adası kimi xarakterizə olunur.

Bütün bunlara baxmayaraq, Azərbaycanın sabit inkişafından, tərəqqiyə hədəflənən dövlət siyasətindən, reallaşdırılan sosial-iqtisadi islahatlardan narahatlıq keçirən, ölkəmizin beynəlxalq imicinə zərbə vurmaq istəyən bir sıra xarici antimilli qüvvələr zaman-zaman təxribat xarakterli əməllərə əl atırlar. Həmin ermənipərəst mərkəzlərə xidmət edən yerli "beşinci kolon" nümayəndələri isə fərqli adlar altında terror çağırışları səsləndirir, hətta həmin əməlləri dəstəkləyirlər. Məsələn, AXCP sədri Əli Kərimlinin bir il öncə baş vermiş Gəncə hadisələri zamanı terrora cəhd göstərənləri dəstəkləməsi, onların "məsum olduqları"nı iddia etməsi hər kəsin yaddaşındadır. Bu "dəstəyi"ndən bir mətləbin hasil olmaması, deyəsən, AXCP sədrini başqa xəyallara salıb. Belə ki, son dövrlərdə sosial şəbəkələrdə "aktivliyini" artıran, yenidən yalan və hədyanlarını işə salmağa çalışan Əli Kərimli dövlətimizin, xalqımızın ünvanına böhtanlar atmaqdan usanmır, mənbəsiz, yalan informasiyalarla xalq arasında çaşqınlıq yaratmaq istəyir, Azərbaycana qarşı aparılan çirkin kampaniyaların tərkib hissəsi kimi çıxış edir. Daha dəqiq desək, bir müddətdir sosial şəbəkələrdə zorakılıq, terror və qarşıdurma çağırışları edən xaricdə məskunlaşmış dağıdıcı ünsürlərin "təkliflərini" böyük həvəslə müzakirəyə çıxaran Əli Kərimli üzdə guya buna qarşı olduğunu bildirsə də, özü kimi xarici anti-azərbaycançı mərkəzlərin xidmətçisi olan Sevinc Osmanqızının internet kanalına verdiyi müsabihəsində üstüörtülü şəkildə həmin zorakı çağırışları dəstəkləyənlərdən "məsləhət"lərini əsirgəmir.

Əslində, Əli Kərimli özü etiraf edir ki, Azərbaycan xalqı radikal düşərgəyə dəstək vermir və dağıdıcı ünsürlərin keçirdiyi icazəli mitinqə belə azsaylı adam qoşulur. O cümlədən Əli Kərimli üzdə zorakılığı "pislədiyini" bildirsə də, həmin zorakılıq çağırışları edənlərə "tapşırıqlar", "məsləhətlər" verir. Belə ki, adıçəkilən internet resursundakı müsahibəsində Əli Kərimli terror və silahlı qarşıdurma, qanunlara qarşı çıxmaq çağırışı edənlərə bildirir ki, onlar məskunlaşdıqları ölkələrdən "rahat" şəkildə bu çağırışları edə bilər. Daha doğrusu, həmin xarici ölkələr bu adını "mühacir" qoymuş əlaltılarını Azərbaycana təhvil verməyəcək. Necə deyərlər, Ə.Kərimli bir daha terror çağırışı edənləri arxayın etməyə çalışır. Hətta bir az da irəli gedərək ötən il Gəncədə baş verənlərin Bakıda "baş vermə ehtimalları"nı belə dilə gətirir.

Göründüyü kimi, ermənipərəst mərkəzlərin, anti-azərbaycançı dairələrin Azərbaycana qarşı apardıqları çirkin kampaniyalara dəstək verən, hətta bu kampaniyaların təbliğatçısı rolunda çıxış edən Əli Kərimli kimi ünsürlər ölkəmizin mənafeyinə qarşı erməni lobbisi ilə birlikdə hərəkət edirlər. Ən əsası isə, radikal ünsürlər milli dəyərlərimizi, dövlətçiliyi hədəfə alır, dövlət əleyhinə qeyri-qanuni çağırışlar səsləndirirlər.

**Pərviz SADAYOĞLU**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir


**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

# Azərbaycanın regionlarında yol infrastrukturu quruculuğu uğurla davam edir

## *Bölgələrdə bu istiqamətdə ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir*









*(Əvvəli ötən sayımızda)*

Hazırda şəhərin Əttarlar küçəsində və Nəriman Nərimanov prospekti boyunca işlər davam edir. Belə ki, prospektdə, şəhərdaxili küçələrin yollarında köhnə asfalt qatı qazılaraq yenisi ilə əvəz olunur.

Şabran rayonuna gəlincə, burada uzunluğu 25 kilometr olan Surra-Düz Bilici-Qorğan-Çinarlar avtomobil yolu IV texniki dərəcəyə uyğun yenidən qurulur. Tikinti layihəsinə uyğun olaraq, marşrut boyu 16 ədəd yararsız hala düşmüş müxtəlif diametrli dairəvi suötürücü dəmir-beton borunun yeniləri ilə əvəz edilməsi və izolyasiyası işləri aparılır. Bundan başqa, 2 yerdə düzbucaqlı su keçidinin, 2 nöqtədə 1 aşırımlı dəmir-beton konstruksiyalı körpünün tikintisi də layihədə nəzərdə tutulub. Asfaltlanma işləri yolun 150 min kvadratmetrdən çox sahəsini əhatə edəcək. Layihənin sonuncu mərhələsində isə hərəkətin normal təşkili üçün yol nişanları, kilometr göstəriciləri və siqnal dirəkləri quraşdırılacaq, üfüqi nişanlanma xətlərinin çəkilişi işləri aparılacaq.

Surra-Düz Bilici-Qorğan-Çinarlar avtomobil yolu 9 yaşayış məntəqəsini əhatə etməklə 4 minə yaxın vətəndaşın rayon mərkəzinə, eləcə də respublikanın istənilən nöqtəsinə rahat gediş-gəlişini təmin edəcək, marşrut boyu kənd təsərrüfatı və turizmin daha da inkişaf etməsinə, yeni turizm marşrutların yaranmasına şərait yaradacaq.

Şabran rayonunun ərazisində, həmçinin dəniz səviyyəsindən 1232 metr yüksəklikdə yerləşən "Çıraqqala" abidəsinin bərpası işləri çərçivəsində qalaya gedən yol abadlaşdırılır. Dünya əhəmiyyətli tarix və mədəniyyət abidəsində möhkəmləndirmə, bərpa-konservasiya işləri Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən aparılır. İlk növbədə, "Çıraqqala" Tarixi Qoruğunun ərazisində qalayadək yalnız piyada və ya atla getmək olan dar cığır genişləndirilir. Çətin relyefli dağlıq və meşəlik ərazidən keçən təxminən 500 metr uzunluğundakı çığırın eni ərazidən aslı olaraq 1,5-2,5 metrədək artırılır. Qaya parçalarından təmizlənərək hamarlandıqdan sonra həmin yol təbii daşlarla döşənəcək. Bundan sonra yolda turistlər qrup halında rahat hərəkət edə biləcəklər. Yol genişləndirilərkən ərazidəki ağaclara ziyan dəyməməsi üçün qabaqlayıcı tədbirlər görülüb.

Daha bir yenilik ondan ibarətdir ki, bu yolla qalaya gələn turistlər "Çıraqqala"nın baş bürcünə çatmaq üçün ərazidə tikiləcək yeni körpüdən istifadə edəcəklər. Dayaqlar üzərində qurulacaq taxta körpünün uzunluğu 20-25 metr olacaq. Bu ərazidə qədim dövrlərdə "dəvə körpüsü" adlanan körpü mövcud olub.

İş icraçısı bildirib ki, hazırda "Çıraqqala"ya gedən yolun abadlaşdırılması ilə yanaşı, ərazidə tikinti meydançasının qurulmasına, qalanın bərpasını həyata keçirəcək işçi heyət üçün ofis binasının tikintisinə hazırlıq işləri görülür. Həmçinin elektrik və su xətlərinin çəkilişi də planlaşdırılır.

Şabran və Siyəzən rayonlarından "Qalaaltı Hotel & SPA" müasir müalicə-istirahət kompleksinə kimi yeni yol çəkilib. Buradan "Çıraqqala" abidəsinin yerləşdiyi qayanın ətəyinə kimi dağlıq relyefli ərazidən keçən 3 kilometrlik yolda hazırda xüsusi yolsuzluq avtomobilləri ilə hərəkət etmək mümkündür. Möhkəmləndirmə, bərpa-konservasiya işləri başa çatdıqdan sonra "Çıraqqala" Tarixi Qoruğunu ziyarət edən həm yerli, həm də xarici turistlərin sayının dəfələrlə artacağı gözlənilir.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən Qusar rayonunun Cibir-Həzrə-Mucuq-Sudur avtomobil yolunun yenidənqurma işləri həyata keçirilir. Agentlikdən bildirilib ki, Cibir-Həzrə-Mucuq-Sudur marşrutu üzrə 14 yaşayış məntəqəsini əhatə edən yolun uzunluğu 46 kilometrdir. Bu avtomobil yolu torpaq əsaslı və çınqıl örtüklü olmaqla 4-cü texniki dərəcəlidir. Uzun müddət təmir olunmadan istismarı və təbii faktorların təsiri nəticəsində yolda çökmələr, deformasiyalar əmələ gəlmişdi. Bu səbəbdən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən aparılan yolun yenidənqurma işləri mövcud problemləri aradan qaldırır.

Layihəyə uyğun olaraq, yolun 36 kilometri asfalt-beton, 10 kilometri isə çınqıl örtüklü olmaqla yenidən qurulur. Bu çərçivədə sözügedən yolboyu deformasiyaya uğramış hissələr qazılaraq çıxarılır, əvəzinə yararlı material tökülərək kipləşdirilir, yolun torpaq yatağının təmiri və bərpası işləri aparılır, normativ eninin alınması üçün torpaq yatağı genişləndirilir.

Texnoloji ardıcıllığa uyğun olaraq, yol əsasının alt və üst layının lazımi qalınlıqda karxana çınqılı və optimal-çınqıl qarışığı ilə tikintisi işləri görülür. Daha sonra əlaqələndirici bitum səpilməklə iri və xırda dənəli olmaqla 2 laydan ibarət asfalt-beton örtüyünün döşənməsi işlərinə start verilib. Yolun hərəkət hissəsinin eni 6 metr nəzərə alınmaqla bu işlər 220 min kvadratmetr sahəni əhatə edəcək. Bundan başqa, optimal çınqıl qarışığı ilə çiyin hissələrin bərkidilməsi, həmçinin giriş-çıxış yollarının təmiri də nəzərdə tutulur.

Yolboyu mövcud suötürücü borular sınmış və çökərək yararsız vəziyyətə düşdüyündən yeni suötürücü dəmir-beton boruların quraşdırılmasına ehtiyac yaranmışdı. Bu səbəbdən 46 dairəvi dəmir-beton suötürücü boru, iki yerdə düzbucaqlı su keçidinin və 2 nöqtədə 1 aşırımlı dəmir-beton konstruksiyalı körpülərin tikintisi layihədə nəzərdə tutulmuş işlərdəndir.

Tikinti işlərinin sonuncu mərhələsində hərəkətin normal təşkili üçün yolboyu yol nişanları və məlumatverici lövhə, kilometr göstəriciləri və siqnal dirəkləri quraşdırılacaq, yol-cizgi və yolgöstərici xətlər çəkiləcək.

Qusar rayonunun Cibir-Həzrə-Mucuq-Sudur avtomobil yolunun tikintisi sakinlərin rahat gediş-gəlişini təmin edəcək, 8 min əhalinin yaşadığı 14 yaşayış məntəqəsinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasında və bölgədə turizmin və kənd təsərrüfatının inkişafında mühüm rol oynayacaq.

Qobustan rayonunda isə Ərəbqədim-Göydərə avtomobil yolu yenidən qurulur. Başlanğıcını Bakı-Şamaxı-Yevlax avtomobil yolunun 88-ci kilometrindən götürən Ərəbqədim-Göydərə yolu 4-cü texniki dərəcəlidir. Məlumata əsasən, yolun ümumi uzunluğu 13 kilometrdir. Layihə çərçivəsində yolun normativliyinin təmini üçün eninin 6-7 metrdən 10 metrə genişləndirilməsi və profilə salınması işləri aparılıb. Tikintinin aparıldığı ərazi 130 min kvadratmetrdən çoxdur.

Hazırda yol əsasının alt və üst layının nəzərdə tutulmuş qalınlıqda tikintisi aparılır. Daha sonra 2 laydan ibarət 12 santimetr qalınlığında asfalt-beton örtüyünün döşənməsi işləri görüləcək. Yolun hərəkət hissəsinin eni 6 metr nəzərə alınmaqla 78 min kvadratmetr sahəni əhatə edəcək.

Layihə çərçivəsində müxtəlif diametrlərə malik 6 ədəd yeni dairəvi suötürücü borunun quraşdırılması, həmçinin 1 dördbucaqlı su keçidinin inşası da nəzərdə tutulub.

Bundan başqa, zəruri yerlərdə avtonəqliyyat vasitələrinin hərəkətinin təhlükəsizliyinin təmin edilməsi və sürücülərin düzgün istiqamətləndirilməsi məqsədilə yol nişanları, məlumatverici lövhələr, kilometr göstəriciləri və siqnal dirəkləri quraşdırılacaq, yol-cizgi və yolgöstərici xətlər çəkiləcək.

Avtomobil yolu 2 mindən artıq əhalinin yaşadığı 2 yaşayış məntəqəsinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılması, həmçinin bölgədə iqtisadiyyatın və kənd təsərrüfatının inkişafında da mühüm rol oynayacaq.

Onu da bildirək ki, Şamaxı rayonunun Qonaqkənd-Həmyəli-İkinci Çaylı-İkinci Cabanı-Cabanı kəndlərini birləşdirən avtomobil yolunun yenidən qurulması işləri aparılır. Başlanğıcını Bakı-Şamaxı-Yevlax magistral avtomobil yolunun 115-ci kilometrindən götürən yerli əhəmiyyətli Qonaqkənd-Həmyəli-İkinci Çaylı-İkinci Cabanı-Cabanı yolunun uzunluğu 26,1 kilometr olmaqla IV texniki dərəcəlidir.

Layihə çərçivəsində yolun eninin 6-7 metrdən 10 metrə genişləndirilməsi və profilə salınması işləri aparılır. Tikintinin aparıldığı ərazi 250 min kvadratmetrdən çoxdur.

Şamaxı rayonunun sözügedən avtomobil yolunun yenidən qurulması ilə 5 yaşayış məntəqəsi arasında nəqliyyat əlaqəsi yaxşılaşacaq, yetişdirilən məhsulun tez bir zamanda istehsalçıdan istehlakçıya çatdırılmasına hərtərəfli şərait yaradılacaq, yolboyu yaşayan 4 minə yaxın əhali rayon mərkəzinə və qonşu rayonlara rahat çıxış əldə edəcəklər.

Tovuz rayonunun Qovlar-Əyyublu-Alakol-İbrahimhacılı-Yanıqlı-Ağacqala-Qoçdərə-Çobansığnaq-Yoğunbulaq-Sarıtala avtomobil yolunun tikintisi isə yekunlaşmaq üzrədir. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, bir neçə istiqamət üzrə yenidən qurulan 51 kilometrlik yolun 15 kilometrlik Qovlar-Əyyublu-Alakol hissəsi 2016-cı ildə əsaslı şəkildə təmir edilərək istifadəyə verilib. Layihə çərçivəsində yolun 820 metrlik hissəsi I, qalan hissəsi isə III texniki dərəcəyə uyğun yenidən qurulub. Layihənin icrası zamanı Zəyəmçay üzərində uzunluğu 80 metr, eni 9,5 metr olan dəmir-beton avtomobil körpüsü əsaslı şəkildə təmir edilib. Sözügedən yolun qalan 36 kilometrlik hissəsi isə IV texniki dərəcəyə uyğun yenidən qurulur. Həmçinin 36 kilometrlik yolun 15,1 kilometri asfalt-beton, 20,9 kilometri isə çınqıl örtüklü olmaqla inşa edilir.

Qovlar-Əyyublu-Alakol-İbrahimhacılı-Yanıqlı-Ağacqala-Qoçdərə-Çobansığnaq-Yoğunbulaq-Sarıtala avtomobil yolunun digər 17,3 kilometrlik hissəsində isə hazırda yenidənqurma işləri aparılır. Son mərhələdə isə avtonəqliyyat vasitələrinin normal və təhlükəsiz hərəkətinin təşkili üçün lazımi yerlərdə yol nişanları və məlumatverici lövhələr, həmçinin kilometr göstəriciləri və siqnal dirəkləri quraşdırılacaq, yol-cizgi və yolgöstərici xətlər, o cümlədən piyada zolaqları çəkiləcək. Bununla da, Tovuz rayonunun Qovlar-Əyyublu-Alakol-İbrahimhacılı-Yanıqlı-Ağacqala-Qoçdərə-Çobansığnaq-Yoğunbulaq-Sarıtala avtomobil yolunda müasir yol infrastrukturu yaradılacaq. Eyni zamanda, 50 minədək əhalinin yaşadığı 16 yaşayış məntəqəsini birləşdirən yolun yenidən qurulması sakinlərin Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi avtomobil yoluna rahat çıxışını təmin etməklə rayon mərkəzinə və qonşu rayonlara gediş-gəlişini xeyli asanlaşdıracaq.

Bu məqamda qeyd edək ki, Naxçıvan Muxtar Respublikasında Culfa-Ordubad magistral avtomobil yolunun da müxtəlif hissələrində tikinti işləri davam etdirilir. Layihəyə əsasən, Culfa-Ordubad avtomobil yolunun Culfa-Yaycı hissəsi dörd, Yaycı-Ordubad hissəsi isə ikizolaqlı olacaq. Yolun Culfa rayonu ərazisindən keçən hissəsində torpaqbərkitmə işləri yekunlaşdırılıb, asfalt örtük vurulub. Hazırda yolun Düylün-Dəstə kəndləri ərazisindən keçən hissəsində yol yatağı genişləndirilir, yeni körpü və suötürücülər tikilir, digər hissələrində torpaq işləri aparılır. Ümumi uzunluğu 48 kilometr olan yolun keçdiyi yerlərdə 120 su keçidi və 6 körpü salınacaq. Asfalt örtüyünü yağış sularından qorumaq üçün yol kənarlarında 28 kilometr uzunluğunda su kanalı tikiləcək.

Xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2018-ci il mayın 16-da "Naxçıvan Muxtar Respublikasında Culfa-Ordubad magistral avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb və yolun tikintisinə 30 milyon manat vəsait ayrılıb.

**Nardar BAYRAMLI**

# "BAKCELL" ŞİRKƏTİNİN DƏSTƏYİLƏ BAKIDA M.A.P. BEYNƏLXALQ TEATR FESTİVALI KEÇİRİLƏCƏK




YARAT Müasir İncəsənət Məkanı "Bakcell" şirkətinin tərəfdaşlığı ilə 10-20 oktyabr tarixlərində Bakı şəhərində 3-cü M.A.P. Beynəlxalq Teatr Festivalının keçiriləcəyini böyük məmnuniyyətlə elan edir.

M.A.P. Festivalı (Music, Art, Performance - terminlərin abreviaturası) tamaşaçı auditoriyalarına müasir teatr formalarının geniş spektrini araşdırmağa kömək etmək məqsədilə, teatr sənətinin fərqli formalarını bir araya gətirən ünsiyyət, təhsil, bilik və təcrübə mübadiləsi platformasıdır.

Əvvəlki iki buraxılışda olduğu kimi, bu dəfə də festival şəhərin əsas teatr səhnələrini əhatə edəcək və auditoriyanı son bir neçə ildə rəğbət qazanmış ən cəsur və maraqlı tamaşalarla tanış edəcək. Proqrama dram, müasir rəqslər, fiziki teatr və kukla tamaşalarından tutmuş klounada və sirk elementlərinə malik musiqili tamaşalara qədər ən müxtəlif janr və istiqamətləri təmsil edən 18 tamaşa daxildir.

Bu il festivalda Y.Vaxtanqov adına Dövlət Akademik Teatrı (Rusiya), "AXE" Mühəndis Teatrı (Rusiya), "Priyut komedianta" Teatrı (Rusiya), "Kukolniy dom" Teatrı (Rusiya), Yeni Riqa Teatrı (Latviya), Akademik Malıy Dram Teatrı - Avropa Teatrı (Rusiya), Devid Espinoza Kukla Teatrı (İspaniya), "OLE!" kollektivi (İspaniya / Böyük Britaniya), "WHS" Teatrı (Finlandiya), dünyaca məşhur "Kibbutz" Müasir Rəqs kollektivi (İsrail), "Sardegna" Teatrı (İtaliya), "Atelye" Teatrı (Rusiya), "Puppet Cinema" kollektivi (İsrail) və "Recirquel" şirkəti (Macarıstan) iştirak edəcək.

Festival rəsmi olaraq rejissor Kamran Şahmərdanın "Dəli yığıncağı" tamaşası ilə açılacaq. Rejissor Azərbaycan ədəbiyyatının klassik nümayəndəsi Cəlil Məmmədquluzadənin eyniadlı pyesini yenidən nəzərdən keçirərək onu müasir cəmiyyət üçün aktual mövzuları vurğulayan yeni ifadə, musiqi və enerji ilə daha da zənginləşdirib. Lakin festivalın ilk qaranquşları hələ sentyabrın əvvəlindən qanad açacaq və Bakı tamaşaçılarına əfsanəvi Y.Vaxtanqov adına Dövlət Akademik Teatrının 3 tamaşasını izləmək imkanı verəcək. Rimas Tuminasın "Yevgeni Onegin" tamaşası artıq bütün dünyada tənqidçi və tamaşaçıların rəğbətini qazanıb. Bakı auditoriyası tamaşanı Dövlət Musiqili Teatrının səhnəsində izləyəcək. Vaxtanqovçular daha iki tamaşanı - "Medeya" (baş rolda Yuliya Rutberq) və "Lanqustun harayı" tamaşalarını Rus Dram Teatrında göstərəcəklər.

Məşhur Lev Dodinin quruluşunda, füsunkar Kseniya Rappoportun Yelena Andreyevna rolunu ifa etdiyi "Vanya dayı" tamaşası da teatrsevərlərə Rus Dram Teatrının səhnəsində təqdim ediləcək.

Sankt-Peterburqun "Priyut komedianta" Teatrı həyatın mənasını axtarmaqdan və həyatdan sevinc duya bilməməkdən bəhs edən "Podolskdan olan adam" pyesini Azərbaycana gətirəcək. Dmitri Danilovun bu əsəri bir neçə dəfə səhnələşdirilib və 2018-ci ildə "dramaturqun işinə görə" "Qızıl Maska" mükafatına layiq görülüb.

Yeni Riqa Teatrı proqrama tamaşaçıların sevgi ilə qarşıladığı yazıcı Tatyana Tolstayanın "Sonya" pyesi ilə daxil olur. Tamaşanı "Yeni teatr reallığı" nominasiyasında Avropanın Ali Teatr mükafatının laureatı, məşhur latviyalı rejissor Alvis Hermanis səhnələşdirib.

M.A.P. Festivalı həmişəki kimi gənc aktyorlar, rejissorlar və dramaturqların biliklərini paylaşdığı və daha təcrübəli həmkarlarının təcrübəsindən öyrəndiyi təhsil platforması statusunu saxlayır. Festival proqramında onun qonaqlarının təqdimatı ilə çox sayda mühazirə və ustad sinifləri yer alacaq. Bu haqda daha ətraflı məlumatı tezliklə festivalın saytından əldə etmək olar.

Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil İnternet provayderi olan "Bakcell" artıq üçüncü ildir ki, M.A.P. Festivalının baş sponsoru və əsas tərəfdaşıdır. "Bakcell" Azərbaycanda mədəniyyətin və incəsənətin inkişafına, gənc nəsil arasında mənəvi dəyərlərin təbliğinə töhfə vermək üçün əlindən gələni edir.

M.A.P. Festivalının açılışı festivalın keçirildiyi 3 il ərzində səhnələşdirilmiş bütün tamaşaların afişalarının sərgisi ilə müşayiət olunacaq. Beləliklə, YARAT Mərkəzinin qonaqları hələ tamaşaçı zalına daxil olmazdan öncə festivalın tarixinin ən parlaq anları ilə tanış olmaq imkanı əldə edəcəklər.

"Mənim üçün teatr həmişə öyrənməyə çalışdığım ecazkar bir məkan olub. Bura aktyor və tamaşaçının birlikdə yaşadığı, bir-birini dərindən hiss etdiyi və hər birinin öz yolunu seçdiyi yerdir. Bəzən mənim teatrım səhnədəki aktyorların sehrli qüvvələrini oyatmaq üçün ziddiyyətli və mübaliğəli ola bilər. Mənim üçün ideal teatr Yeji Qrotovski və Antonen Arto ənənələrində olan teatrdır. Mixail Çexovun və Yeji Qrotovskinin aktyor işinin psixofiziki prosesinin və onların daxili enerjiləri ilə işləmək qabiliyyətinin inkişaf etdirilməsinə yönəlmiş teatr sistemləri də mənə çox yaxındır.

Sərhədsiz teatr - mən M.A.P. Festivalının konsepsiyasına bununla töhfə vermək istəyirəm. Bu, teatr körpüsünün köməyi ilə sərhədləri aradan qaldıran, mədəniyyətləri birləşdirən və bir-birini qarşılıqlı hiss edən insanları bir araya gətirən bir festivaldır". Bunu M.A.P. Festivalının bədii rəhbəri Kamran Şahmərdan deyib.

O, bildirib ki, biz teatr istiqamətləri arasındakı sərhədləri silərək klounadadan və fiziki teatrdan opera, balet və audiovizual ifalara qədər ifa sənətinin bütün növlərini əhatə edən, fərqli parlaq rənglərdən ibarət festival palitrasını nümayiş etdirmək istəyirik: "Bununla biz teatr aləminin müasir tendensiyalarını nəzərə alaraq Azərbaycan tamaşaçısını yeni ideyalarla təəccübləndirmək və onlara müxtəlif teatr növləri arasında seçim etmək imkanı vermək arzusundayıq. Festivalımızın əsas məqsədi - sizə sevimli teatr janrınızı seçmək imkanı verməkdir".

Məhz Bakı şəhəri öz gözəl infrastrukturu, çoxsaylı teatr və muzeyləri, park və bulvarları ilə festivalımızın baş qəhrəmanıdır.

Mən əminəm ki, teatr cəmiyyətin ruhu və güzgüsüdür. Mən "teatral millət" anlayışı ilə qəti şəkildə razı deyiləm. Teatr ümumbəşər hadisədir, sintetik dilə malikdir və hər xalqa xitab edir. Bizim teatr irsimizə gəldikdə isə, bu, əsrlərin dərinliyinə uzanan köklərə malik ənənəvi meydan teatrıdır. Bu ənənələri hələ də Novruz bayramında yada salırıq.

Biz dünyaya opera sənətinin xüsusi istiqamətini - muğamı bəxş etmişik və bununla teatr aləminə öz töhfəmizi verib onu zənginləşdirmişik. Biz teatrı sevirik, onu anlayırıq. Teatra getməyimizlə və teatr həyatında iştirak etməyimizlə ona dəstək olmaq vaxtı gəlib çatıb. Siz teatrı sevə bilərsiniz, ona nifrət də edə bilərsiniz, lakin heç vaxt ona qarşı laqeyd qalmayın.

Mən bilik və təcrübəmi Azərbaycan tamaşaçı auditoriyası ilə paylaşmaq imkanını mənə qazandırdıqları üçün YARAT Müasir İncəsənət Məkanına və şəxsən Aida Mahmudovaya ürəkdən minnətdaram.

M.A.P. sizin teatr bayramınızdır. Xoş gəlmisiniz!".

# "Azercell Telekom" MMC Goranboy şəhərində yeni Eksklüziv mağazasını istifadəyə təqdim edib




Abunəçilərinə ən qabaqcıl müştəri təcrübəsi yaşatmağı hədəfləyən ölkənin telekommunikasiya bazarının lideri "Azercell Telekom" MMC yeni konsepsiyalı Eksklüziv mağazalarını ölkə boyu genişləndirməyə davam edir. Bu dəfə Azercell Goranboy şəhəri, Heydər Əliyev prospekti 10 ünvanında yerləşən yeni Eksklüziv mağazasını abunəçilərinin istifadəsinə təqdim edib. Bu münasibətlə əlaqədar şirkət yeni mağazanın müştərilərini xüsusi kampaniya ilə sevindirir. Belə ki, avqust ayının 27-dən etibarən 7 gün ərzində, Goranboy Eksklüziv mağazasından smartfon alan hər kəs 150 AZN-dək hədiyyə balansı əldə edəcək.

Azercell-in yeni Eksklüziv mağazası ən müasir avadanlıqla təchiz olunaraq, Nordik konsepsiyasına uyğun şəkildə təşkil edilib. Bu mağazalarda abunəçilər ən son texnoloji yenilikləri dəstəkləyən məhsulları sınaqdan keçirə və müqayisə edə bilərlər. Peşəkar satıcılar müştərilərə düzgün seçim etmək, xidmətləri aktivləşdirmək və digər məsələlərdə yardım edir. Həmçinin mağazada mobil texnologiyaları dəstəkləyən müxtəlif aksessuarlar, cihazlar, kredit və ya nağd şəkildə mobil telefonlar əldə etmək mümkündür.

Goranboy Eksklüziv mağazası, Bazar ertəsi - Şənbə 09:00 - 20:00 (fasiləsiz), Bazar günü 09:00 - 19:00 (fasiləsiz) abunəçilərə xidmət göstərir. Beləliklə, ölkə boyunca artıq 23 Azercell Eksklüziv mağazası fəaliyyət göstərir.

# "Nar" bölgələri yüksəkkeyfiyyətli internetlə təmin etməyə davam edir




Hər bir abunəçisini keyfiyyətli şəbəkə və mobil internetlə təmin etməyi hədəfləyən "Nar", Azərbaycanın bölgələrində də mobil şəbəkəsini genişləndirməkdədir. Artıq ən ucqar kəndlərdə belə "Nar"-ın mobil rabitə xidmətlərindən istifadə etmək mümkündür.

Mobil operator son bu il ərzində regionlarda 460 4G LTE texnologiyalı baza stansiyası quraşdırıb. "Nar"-ın 4G baza stansiyalarının təqdim etdiyi yüksəkkeyfiyyətli mobil internet xidməti nəticəsində 4G internetinin trafik həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 63% artıb. 4G internetindən istifadə edənlərin artımı Bakı üzrə 89%, regionlar üzrə isə 116% təşkil edir.

Mobil operator şəbəkəsinin keyfiyyətilə yanaşı, rabitə xidmətlərinin hər kəs üçün əlçatan olmasını hədəfləyib. "Nar" bölgələrdə yaşayan əhali üçün təklif etdiyi sərfəli "Yerlim" tarifi abunəçilər tərəfindən xüsusi qiymətləndirilir. Belə ki, son 1 il ərzində tarifə qoşulanların sayı 15% artıb. Artıq yarım milyondan çox abunəçi "Nar"-ın "Yerlim" tarifindən istifadə edir.

Qeyd edək ki, "Yerlim" tarifilə abunəçilər eyni bölgədə yaşayan doğmaları, dostları, bir sözlə, bütün yerliləri ilə dəqiqəsi 1 qəpikdən danışa bilərlər. Tarifə qoşulmaq üçün "Yerlim" yazıb 777 qısa nömrəsinə mesaj göndərmək və ya *777#303#YES kodunu yığmaq lazımdır.

Tarif haqqında ətraflı məlumatı https://www.nar.az/yerlim internet səhifəsindən əldə edə bilərsiniz.

**"Nar" abunəçilərinin nəzərinə!**

13.09.2019 tarixindən etibarən "Nar Wi-Fi" paketlərində dəyişikliklər ediləcək. Daha ətraflı məlumatı https://www.nar.az/nar-wi-fi/ səhifəsindən əldə edə bilərsiniz".


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Hikmət BABAOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: **67100**
Lisenziya: **N-B-317**
**Tiraj:** **4820**

"Kapital Bank"ın Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

İnformasiya mənbələrimiz:
**"AZƏRTAC", "Azadinform", "SİA"**
Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.

**Buraxılışa məsul:**
Zahid İLHAMOĞLU